Şiə mənbələrində səhabələrin fəziləti

MÜQƏDDİMƏ

Həqiqətən həmd (şükür və tərif) yalnız Allaha məxsusdur! Biz Ona şükür və tərif edir,Onu köməyə çağırır,Ondan bağışlanma və bizi haqq yoluna yönəltməyi diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Aləmlərə rəhmət olaraq göndərilən peyğəmbərimiz Muhəmməd (s.a.s)-ə, ailəsinə və səhabələrin hamısına Allahın salamı və xeyir duası olsun.

Bu yazıda inşallah şiə mənbələrindən olan sitatlar və öz alimlərinin sözləri ilə onların özlərinə qarşı rəddiyyələr gətiriləcəkdir. Tərcümə və redaktədə bir sıra Türk,Rus,Azəri dilində olan ədəbiyyatlardan istifadə edilmişdir. Risalənin sonunda istifadə olunmuş ədəbiyyatların siyahısı təqdim olunacaqdır.Oxucu müstəqil olaraq özü həmin kitablara müraciət edə bilər.Risalənin uzun olmaması üçün əlavə şərhlərə demək olar ki,yer verilməmişdir.Yazıda ancaq sitatlar nəql olunur. Məqsədim şiə mənbələrində səhabələrin fəziləti ilə əlaqədar olan dəlilləri bir araya gətirməkdir.Halbuki,bu dəlillərdən onların əksəriyyəti qafildir. Ümid edirəm ki,bu risalə haqqı axtaranlar üçün bir vəsilə olacaqdır.Həmçinin qeyd etmək istəyirəm ki,insan işi olduğu üçün risalə mükəmməllikdən uzaqdır.Şübhəsiz ki,nöqsansızlıq və ucalıq Allaha məxsusdur.Ola biləcək irad və təklifləri Facebook-da “AntiRafizi” profilinə göndərə biləsiz.

Bu mövzu çox əhəmiyyətli və dəyərli mövzulardandır.İslamın düşmənlərinin dini yox etmək üçün,bidət əhlinin isə İslamı öz havalarına görə təhrif etmək məqsədi ilə məhz bu sahəyə önəm verdiklərinin şahidi olmaq olar.

Əhli Sünnə Peyğəmbər (s.a.s)-in səhabələrinin peyğəmbərlərdən sonra ən xeyirli zümrə olduqlarına etiqad edir. Çünki,onları Allah Təalə bir çox ayələrində tərif edir.Bunlardan biri: “(Ey müsəlmanlar!) Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz (onlara) yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız. Əgər kitab əhli də (sizin kimi) iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların da içərisində bə'zi iman gətirən şəxslər vardır,lakin çox hissəsi haqq yoldan çıxanlardır.” (Ali İmran 110)

Həmçinin Allahın Peyğəmbəri (s.a.s) onları tərifləmişdir. Mütəvatir və çoxlu yollarla gəlmiş hədisə əsasən Rasulullah (s.a.s) buyurmuşdur: ”İnsanlarin ən xeyirliləri mənim əsrimdə yaşayanlardir.Sonra onların ardınca gələnlər və yenə onların ardınca gələnlərdir”. (Buxari,Muslim,Tirmizi,Əbu Davud,Nəsai)
Sözü çox uzatmadan sitatları nəql etmək istərdim.

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

Əli (r.a) demişdir: “Filankəsin (Əbu Bəkr və ya Ömər) ölkəsi nə əzəmətlidir.O,əyriləri düzəltdi,bidətləri aradan qaldırdı və Allah Rəsulu (s.a.s)-in sünnəsini bərpa etdi,fitnəni arxada qoydu.O,dünyadan günaha bulaşmadan,eyibsiz halda getdi,bu dünyanın xeyrini götürdü,şərrini isə atdı,Allahın itaət borcunu ödədi və ondan lazım olduğu qədər ehtiyyat etdi.(təqvalı oldu)
(“Nəhcul Bəlağa” Subki Saleh tədqiqi ilə səh 350; Muhəmməd Abduhun nüsxəsində c.2,səh 322)

Nəhcul Bəlağanın məşhur şərhçisi Meysəm əl Bəhrani bu sözlərin şərhində deyir: “Bilin ki,Şiə Əli (r.a)-n bu sözləri qarşısında ortaya bir sual qoyub.Bu mədhlər bizim bu iki şəxs baradə olan iddialarımızı alt üst edir.Hansı ki,biz bu iddialar üzərində icma etmişik.Ola bilsin ki,Nəhcul Bəlağada olan Əli (r.a)-ın bu sözləri heç Əli (r.a)-ın sözləri deyil,ya da bizim bu icmamız xətadır. Xülasə bizə vacibdir ki,Əli (r.a)-ın bu sözlərini təqiyyəyə aid edək.”(c.4,səh 98)

İbn Əbil Hədid yazır: “Burada rəhbər sözündən qəsd olunan Ömər ibn Xəttabdır.Mən bu nəqlin Əbul Həsən ər Riza tərəfindən Nəhcul Bəlağada yazıldığı digər nüsxəni tapdım və filankəs sözünün yanında Ömər yazıldığını gördüm.Mən bunu Naqib Əbu Cəfər Yəhya ibn Əbu Zeyd əl Ələvidən soruşdum və O dedi ki,bu Ömərdir.Mən ondan soruşdum: “Məgər Möminlərin Əmiri Öməri tərifləyib?”
O dedi: “Bəli” (İbn Əbil-Hədid "Şərhu Nəhcil-Bələğa", c.3,səh 92,cüz 12)

Bu sözləri Meysəm əl Bəhrani,əd Dəmbali və Əli Nağı da öz şərhlərində gətiriblər.Əli Nağı bu sözləri “Nəcəfin mirvariləri” kitabında da qeyd etmişdir. (“Diraru Nəcəfiyyə” səh 257)

Əli (r.a) və Ömər ibn Xəttab (r.a) Rum döyüşünə çıxarkən məsləhətləşəndə Əli (r.a) Ömərə (r.a) belə dedi: “Sən bu düşmənin üzərinə özün gedib onlarla döyüşsənşsən, müsəlmanların öz ölkələrinin qurtaracağından başqa sığınacaqları olmaz (“Sığınacaq” deyəndə, arxalanacaqları mərkəz nəzərdə tutulur.) Onların səndən sonra müraciət edəcəkləri bir başçıları yoxdur. Sən gəl onların yanına sınaqdan çıxmış bir adam, onunla birlikdə döyüşkən ağıllı adamlar göndər. Əgər Allah bu yolla səni qalib çıxarsa, istədiyin elə bu idi. Yox, başqa cür olsa, insanlara dayaq və müsəlmanların ümid yeri olarsan.” (“Nəhcu-l-Bəlağə”, səh 193 (tərcümədə səh, 167-168), suffuh salih nüsxəsi,Muhəmməd Abduhun nüsxəsində 134-cü xütbə və ya 132-ci xütbə)

İbn Əbil Hədid bu sözlərin şərhində yazır: “Əli (r.a) Ömərin həlak olmasından ehtiyyat edirdi.Onu döyüşə getməməyə və yerinə qalmağı məsləhət gördü.Çünki,onun gedişi ilə müsəlmanlar tərəddüdə və başsız qalardılar.Yaxşı olardı ki,yerinə başqasını göndərsin.Özü isə Mədinədə qalsın ki,müsəlmanlar əgər məğlub olsalar kimə üz tutacaqlarını bilsinlər.” (İbn Əbil-Hədid "Şərhu Nəhcil-Bələğa", c.2,səh 369-370,cüz 12,cüz 8)

Ömər (r.a) özü farslarla döyüşə çıxarkən onunla (Əli (r.a) ilə) məsləhətləşdiyi zaman Əlinin (r.a) Ömər (r.a) haqqında dedikləri bundan da aydındır. O demişdir: “Bu elə bir

işdir ki, onun köməyinə gəlib-gəlməmək çoxluq və ya azlıqdan asılı deyil. Bu, Allahın qalib çıxardığı və adamları onun uğrunda səfərbər etdiyi, hazırladığı və imdad etdiyi dindir ki, çatdığı səviyyəyə çatıb və çıxdığı yerdə üzə çıxıb. Bizə Allah vəd verib. Allah öz əhdini yerinə yetirən, öz əsgərlərinə kömək edəndir. Boyunbağıda nizamlayıcının (Nizamlayıcı, muncuqların düzüldüyü ip mənasındadır) əhəmiyyəti nə qədərdirsə, əmrin etibar edildiyi adamın ("Əmrin etibar edildiyi adamın" ifadəsi "əmr edən" mənasındadır. Bununla xəlifə nəzərdə tutulur.) əhəmiyyəti də o qədərdir. Qoy əcəmlər sənə baxıb desinlər: "Ərəblərin kökü budur, onu kəssəniz, rahat olarsınız". Bu onların sənə qarşı hücumlarını çətinləşdirər. Onların mənim qeyd etdiyim sayca çoxluğuna gəlincə, biz keçmişdə də say çoxluğu hesabına deyil, Allahın köməyi və yardımı ilə döyüşmüşük." ("Nəhcul Bəlağə" səh 203-204 (tərcümədə səh:166-167 Tehran çapı-1995);146 və ya 144-cü xütbə)

Əli (r. a) demişdir: "Mən Muhəmməd (s.a.s) əshabını gördüm. İçinizdə onlara bənzər bir adam belə görmürəm. Onlar saçları dağılmış, toz-torpağa bulanmış bir halda sabahı açar, gecələrini namazla keçirərdilər. Kimi alnını torpağa sürtərdi, kimi üzünü, qiyaməti xatırlayanda köz kimi yanardılar. Alınları səcdə etməkdən keçinin dizlərine dönmüş, qabıq bağlamışdı. Allahı yada salanda əzab qorxusundan, savab ümidindən göz yaşı tökərdilər. Hətta elə ağlayardılar ki, yaxaları islanar və yelin əsdirdiyi ağac kimi titrəyərdilər." ("Nəhcul-Bəlağə", səh 143,№97 (tərcümədə səh 257, Tehran çapı, 1995;"Kəfi"c.2,səh 236;"Biharul Ənvar" c.66,səh 307)

Bu sözləri deyən Əli (r.a) guya onun Şiəsi olduğunu deyənlər haqqında deyir: "Sizin nə elə etibarınız var ki, adam sizə etibar etsin, nə də hörmətə layiqsiniz ki, qeyrətiniz çəkilsin. Siz nə yaman ara qızışdıransınız! Aman sizin əlinizdən! Sizə aşkar bir söz deyəndə də, sirr açanda da sizdən əziyyən gördüm. Siz nə adamın səsinə səs verən səmimi dost deyilsiniz, nə də sirr açanda etibarlı qardaş"("Nəhcul-Bəlağə" səh 183)

Həmçinin Əli (r.a) deyir: "Ey kişiyə oxşayıb kişi olmayanlar! Uşaq düşüncəli və qadın ağıllılar! Nə yaxşı olardı, mən sizi heç görməyəydim və tanımayaydım. Allaha and olsun ki, peşmançılıqdan, kədərdən yaxa qurtara bilmirəm. Allah sizi öldürsün! Qəlbimi irinlə doldurmusunuz, köksümü qeyzlə yükləmisiniz. Mənə sinə dolusu töhməti qurtum-qurtum uddurmusunuz. Mənim rəyimə mənə qarşı üsyan etməklə və məni arada qoyub qaçmaqla zay etmisiniz..."("Nəhcul-Bəlağə" sh.70-71 Beyrut çapı)

Əli (r.a)-ın Müaviyyə (r.a)-a yazdığı məktubda İmam Əbu Bəkr (r.a)-ın Xilafətə daha layiq olduğunu təsdiqləyir və deyir: "Mən artıq demişəm ki,Allah Təala öz Peyğəmbərinə müsəlmanlardan olan köməkçilər seçib.Dediyim kimi bu müsəlmanlar öz təqvaları ilə seçilirdilər.Onlardan Allaha və Peyğəmbər (s.a.s)-ə ən sadiqi Siddiq və onun varisi Faruq idi. And içirəm ki, onların İslamda yerləri həqiqətən böyükdür. Onların yoluxduğu adam şiddətli İİslam xəstəliyinə tutular (yəni, onlardan ibrət götürənlər dinlərində daha möhkəm olardılar). Allah onlara rəhmət etsin və onları

gördükləri ən yaxşı işlərə görə mükafatlandırsın.” (Meysəm “Şərh Nəhcu-l-Bəlağə”, 1/31, Tehran çapı)

Əli (r.a) deyir: “İslama dəvət olunan və onu qəbul edən,Quranı oxuyub,onu rəhbər tutan,cihada çağrılıb,ona gedən insanlar hanı?Bu hiss onları elə sardı ki,qılınclarını sıyıraraq,səf-səf irəliləyərək torpaqlar fəth etdilər.Onlardan bəzisi şəhid oldu,bəzisi sağ qaldı.Sağ qalanlara görə sevinməz,ölənlərə görə isə onlara heç kəs üzüntü bildirməzdi.Onların gözləri göz yaşlarından qızarar,mədələri isə oruc tutmaqdan boş olardı.Dilləri duadan əskik olmaz,sifətləri isə yuxusuzluqdan sararardı və onlarda təqvalıların tozu vardı.Onların mənim keçmiş qardaşlarımdır və biz onlarla görüş üçün səbirsizlənməliyik.” (Nəhcul Bəlağa,Subki Saleh tədqiqi ilə səh 177-178)

Əli (r.a) deyir: “Ey Allahın qulları.Agah olun ki,bizlərdən olan təqvalılar dünyadan tələsərək axirət evinə köçdülər.Onlar insanlar ilə bu dünya həyatında iştirak etdilər,insanlar isə onların qəbir evində iştirak etmədilər.Səhabələr bu dünyada ən gözəl şəkildə yaşadılar,yeməklərin təmizlərini yedilər,dünya nemətlərindən istifadə etdilər,bu dünyadan təkəbbürlü zalımların götürdüyünü götürdülər,sonra isə bunların hamısından imtina edərək,özlərinə lazım olan qida və sabit ticarəti aldılar.Onlar həyatlarını elə yaşayırdılar ki,sabah axirət yurdunda Allahla qonşu olacaqlarına bilirdilər.Onların heç bir istəyi rədd olunmayacaq və heç bir mükafatları da əskildilməyəcəkdir.” (Nəhcul Bəlağa,Subki Saleh tədqiqi ilə səh 383)

Həmən kitabda deyilir: “Əgər hər hansı bir adam Muhəmməd (s.a.s)-in Əhli Beytinə və onun əməlisaleh Səhabələrinə əziyyət edərsə,Allahdan elə bir cəza alar ki,bu bəla bütün məxluqatı məhv etməyə yetər.” (həmən yerdə səh 196)

Əli (r.a) deyir: “Biz Peyğəmbər (s.a.s) ilə birgə idik,öz atalarımızı,oğullarımızı,qardaşlarımızı,əmilərimizi öldürürdük.Bununlada dirəncimiz,səbrimiz,əzmimiz və düşmənə qarşə qətiyyətimiz artırdı.Düşmənlərlə döyüşəndə onlardan və bizlərdən birimiz meydana çıxardı və cəngavər kimi döyüşərdik və bir-birimizin üzərinə aslan kimi cumardıq.Hər tərəf qarşı tərəfi qanına boyamaq istəyirdi.Həm onlardan,həm də bizlərdən ölənlər olurdu.Beləcə Allah Təala bizim imanımızı,sadiqliyimizi gördükdə düşmənlərimizi alt-üst etdi və bizə qələbə nəsib etdi.Bu andan etibarən İslam yüksəldi və ətraf əraziləri əhatə etdi.Allaha and olsun

ki,əgər biz sizə bənzəsəydik dinin heç bir sütununu qaldırmaq,imanın heç bir şöbəsini yüksətmək olmazdı.Allaha and içirəm ki,siz öz əməllərinizdən çox peşman olacaqsız və nahaq qanlar tökürsüz.”
(“Nəhcul Bəlağa”,Subki Saleh tədqiqi ilə səh 91-92)

Şiə tarixçisi Yəqubi Əbu Bəkrin Xilafəti illərinə toxunarkən yazır: “Əbu Bəkr Rumlulara hücum etmək istədi.Bu məqsədlə Səhabələrdən olan camaatla məsləhətləşdi.Müxtəlif fikirlər olduqda Əbu Bəkr Əliyə məsləhət üçün müraciət etdi.Əli ona müharibəni başlamağı tövsiyyə etdi və dedi: “Əgər müharibəni başlasan qalib gələcəksən.”
Əbu Bəkr dedi: “Allah səni sevindirsin”
Sonra Əbu Bəkr insanlara üz tutaraq,onların döyüşə hazırlaşmalarını istədi.” (“Tarix Yəqubi” c.2,səh 132-133)

Digər rəvayyətdə isə Əbu Bəkr Əlidən bunu haradan bildiyini soruşduqda Əli dedi: “Mən Peyğəmbər (s.a.s)-in bizə bu müjdəni verdiyini eşitdim.”
Əbu Bəkr dedi: Ya Əbu Həsən.Peyğəmbər (s.a.s)-in bu müjdəsi ilə məni sevindirdin.Allah səni sevindirsin. (“Tarihu təvarih” c.2,kitab 2,səh 158)

əl Yəqubi yazır: “Əbu Bəkrin Xilafəti zamanı şəriət məsələlərinə görə bir neçə adam var idi ki,onlara müraciət olunurdu.Bunlar: Əli ibn Əbu Talib,Ömər ibn Xəttab,Muaz ibn Cəbəl,Ubeyy ibn Kaab,Zeyd ibn Sabit və Abdulla ibn Məsud idi” (“Tarix Yəqubi” c.2,səh 138)

Əli (r.a) daima xütbələrində deyərdi: “Allahım! Raşid xəlifələrini islah etdiyin kimi, bizi də islah et!” Ondan soruşanda ki; “onlar kimlərdir?”, cavabında İmam belə demişdir: “Onlar iki sevimli, İslamın şeyxləri, hidayət rəhbərləri və Peyğəmbər (s.a.s) dən sonra özlərinə tabe olunan Qureyşin kişiləri: Əbu Bəkr və Ömərdir. Kim onlara tabe olsa qorunar, onların izi ilə gedən isə doğru yolda olar.”(Tusi “Təlxisuş-Şəfi” 2/428).

İmam Əli Müaviyyəyə yazdığı məktubda yazır: “Başqalarını ötüb keçənlər bununla qələbə çalmış,ilk mühacirlər isə fəzilət əldə edərək getmişlər.” (“Nəhcul Bəlağa”səh 374; “Biharul Ənvar”c.33,səh 104; ”Vaqətus Səffeyn”səh 149)

Əli (r.a) deyir: “Mühacirlərdə bizim bildiyimiz bir çox xeyirlər vardır.Allah onları ən xeyirli mükafatla mükafatlandırsın.” (Məclisi “Biharul Ənvar”c.33,səh 110; “Vaqətus Səffeyn”səh 88)

Əli (r.a)-ın Misirə göndərdiyi məktubda deyilir: “Bismilləhir rahmənir rahim.Allahın qulu möminlərin əmiri Əli tərəfindən.Bütün müsəlmanlara bu məktub çatdırılsın.Salam olsun sizə.Mən ondan başqa ilah olmayan Allahı həmd səna edirəm.Allah Təala bu dini özünə,mələklərinə,peyğəmbərləri üçün seçdi və peyğəmbərini qullarına seçilmiş dinlə göndərdi.Seçilmişlərdən və lütf əta olunanlardan biri də bu ümmət idi.Ümmət isə ona göndərilən Muhəmməd (s.a.s) ilə şərəflənmişdi ki,beləcə o insanlara kitabı,hikməti,sünnəni və dinin buyruqlarını öyrədirdi. O,insanları elə tərbiyyə etdi

ki,onlar haqqı tapa bilsinlər və bir araya cəm etdi ki,camaat olsunlar.O,onları daxilən təmizlədi ki,onlar təmizlənsinlər.Allah onu O missiyasını tamamladıqdan sonra özünə tərəf apardı.Həqiqətən Allah hər cürə tərifə layiqdir.Bundan sonra müsəlmanlar özlərinə iki fəzilətli adamı rəhbər olaraq seçdilər ki,onlar Allah onların ruhunu alana qədər Quranın əhkamlarını yerinə yetirib,vicdanlı həyat yaşadılar və sünnəni pozmadılar.Allah onları bağışlasın….(“Hərrat” (axın) c.1,səh 210)

Məşhur Şiə alimi Şeyx Mufid “İrşad”kitabında “Əbu Bəkrin Xilafəti dövründə Əlinin vəziyyəti” adlı fəsil ayırmışdır.Bu fəsildə o yazır: “Əbu Bəkrin yanına içki içən adam gətirdilər.Onu cəzalandırmaq istədikdə o dedi: “Mən içkini içərkən onun qadağan olduğunu bilmirdim.Beləki,mən içkini içən və onu haram görməyən adamların arasında böyümüşəm.Buna görə də mən içkinin haram olduğunu bilməmişəm.
Əbu Bəkr bu işi həll etmədə çətinlik çəkdi.Onun yanındakılar ona məsləhət gördülər ki,bu məsələnin həlli üçün Möminlərin Əmiri Əliyə müraciət etsin.Əbu Bəkr İmamın yanına adam göndərdi.İmam dedi: “Etibar etdiyin iki adamı Mühacir və Ənsarların məclislərinə göndər və onlardan soruş.Bu adama aranızdan hər hansı biriniz içkinin qadağan olunması baradə ayə və hədisi çatdırıbmı?Əgər bunu iki nəfər təsdiqləsə onu cəzalandır.Əgər təsdiq edən olmasa onu tövbə elətdirib,buraxın.”
Əbu Bəkr belədə etdi.Mühacir və Ənsarlardan heç kəs ona içkinin haram olması xəbərini çatdırmadığını dedi və Əbu Bəkr Əli deyən kimi onu tövbə elətdirib azad etdi.” (Mufid “İrşad” səh 107)

“Bir dəfə kafirlər elə oldu ki,Mədinəyə girdilər və gördülər ki,müsəlmanlar hərəsi bir tərəfdə,cihadda və dindən dönənlərə qarşı müharibədə olduğu üçün azdırlar.Əbu Bəkr kafirlərin Mədinə üçün bu təhdidini başa düşdü və göstəriş verdi ki,Mədinə şəhəri bir çox ehtimal olunan yerlərdə mühafizlər və gözətçilər qoyulmaqla qorunsun.O,Əli,Zubeyr,Təlha,İbn Məsuda bu gözətçilərin başında əmir təyin etdi.Onlar bu işdə təhlükə sovuşana qədər qaldılar.” (“Şərh Nəhcul Bəlağa” c.4,səh 228 Təbriz)

Əbu Bəkrin vaxtında Əli qənimətdən gələn malın 1/5-i bölüşdürülməsi və idarə edilməsi ilə məşğul idi.Sonra bu haqq Həsənə keçdi,sonra Hüseynə,sonra Zeyd ibn Həsənə keçdi.” (İbn Əbil-Hədid “Şərhu Nəhcul-Bələğa", c.4,səh 118)

“Əli (r.a) müntəzəm olaraq Peyğəmbər (s.a.s) məscidini ziyarət edərdi və orada Əbu Bəkrin arxasında namaz qılardı.Bununla da ona dostluğunu,rəhbərliyini təsdiq edərdi.”(Təbərsi “İxticac”səh 53)

Tusi Əlinin Əbu Bəkrin arxasında namazından danışır və nəql edir: “O,göründüyü kimi ən azı müsəlmandır.”(Tusi “Təlxisuş-Şəfi” səh 354).

İmam Zeynalabiddin əl-Həşr surəsinin 8-10 cu ayələri ilə Əbu Bəkr, Ömər və Osmanı Rafizilərə qarşı müdafiə etmişdir.(“Kəşful-ğummə”2/291)

İmam Baqir demişdir: “Allah, Əbu Bəkrə Siddiq(doğrucul) deməyənin sözünü nə bu dünyada, nə də axirətdə təmizə çıxarmaz.”(“Kəşful-ğummə”2/360)

"Əbu Bəkr (r.a) vəsfi haqqında Qumminin təfsir kitabında Əbu Abdullahdan nəql etdiyi rəvayyətdə deyilir: “Peyğəmbər (s.a.s) mağarada olarkən Əbu Bəkrə demişdir: “Elə bilki Cəfərin gəmidə öz əshabələri ilə dənizdə üzdüyünü görürəm və Ənsarlara baxıram və görürəm ki, günahsız halda evlərində oturublar.Bu an Əbu Bəkr: ”Ey Allahın Rəsulu.Sən onları görürsənmi? Peyğəmbər (s.a.s) “bəli” cavabını verdi.Əbu Bəkr “mənədə göstər Ey Allahın Rəsulu” dedi və Peyğəmbər (s.a.s) Əbu Bəkrin gözünə əlini çəkdi və o da onları gördü.Peyğəmbər (s.a.s) Əbu Bəkrə: “Sən siddiqsən” dedi. (Qumminin Təfsiri , cild 1,səh 289;“Burhan” c.2,səh 125)

"Həsən Bin Əli (r.a) Peyğəmbər (s.a.s)-dən etdiyi rəvayyətdə:
Peyğəmbər (s.a.s) buyurdu:“Əbu Bəkr mənim qulağım,Ömər mənin gözüm və Osman isə mənim ürəyim misalındadır. Həsən bin Əli sabahısı gün Peyğəmbər (s.a.s)-in yanına getdiyimdə orada möminlrin əmiri Əli,Əbu Bəkr,Ömər və Osmanı gördüm və ey atacığım sənin əshabələrindən bunlar haqqında belə dediyini eşitmişəm dedim.Peyğəmbər (s.a.s) bəli cavabını verdi və onlara işarə edərək, onlar qulağım, gözüm və ürəyimdir dedi.” (Təfsirul Burhan cild 4,səh 564,565)

"Məşhur Şiə alimlərindən Məclisi “Biharul Ənvar” kitabında Peyğəmbər (s.a.s)-dən belə bir hədis rəvayyət etmişdir. Peyğəmbər (s.a.s) buyurmuşdur: Tuba(Cənnətdə vadi) məni görənə,Tuba məni görənə və məni görəni görənə olsun.” (Biharul Ənvar kitabı,c.22,səh305, Səduqun, “Amali” kitabı səhifə 240,241)

Cabir Cufi rəvayyət edir ki,bir dəfə İmam Baqir onunla vidalaşan zaman ona demişdir: “Kufə əhlinə bildir ki,mən Əbu Bəkr və Ömərdən üz döndərənlərin günahını bölüşmürəm.(“Hilyətul auliyyə” c.3,səh 39,137)

İmam Zeynəlabiddinin duası: ”Ya Rəbbi!Səni zikr edərək,Muhəmməd (s.a.s) səhabələri üçün bağışlanma və razılıq diləyərkən.Onlar ki,dostluğun ən gözəl örnəyini göstərdilər,ona kömək etmək üçün əllərindən gələni etdilər,onu qarşılamaq və dəvətinə icabət etmək üçün bir-biri ilə yarışdılar.Onun dəvətini qəbul edib,sözünü ucaltmaq üçün zövcələrindən və övladlarından ayrıldılar,ataları və qardaşlarına qarşı onun peyğəmbərliyini təsdiq etmək üçün vuruşdular.Onlar Peyğəmbər (s.a.s)-ə bağlanarkən ailələri və qohumları tərəfindən tərk olundular.Ya Rəbbi! Onlar sənin

yolunda hər şeylərindən və əmlaklarından keçdilər ki,sənin razılığını qazansınlar.Çünki,sənə təvəkkül edərək haqqı müdafiə edirdilər.Onlar hər şeyi sənə görə edirdilər.
Elə isə onları sənin yolunda hicrət edərək torpaqlarını tərk edib,nemətlərdən üz döndərib,əziyyətləqə qatlandıqlarına görə mükafatlandır.
Ey Rəbbim!Bunu onların ardıcıllarına çatdır.Onlar ki,dürüst davranıb deyirlər: “Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla.”
Səhabələrin ardıcılları onları nümunə aldılar,onların yollarını öyrəndilər.Əgər onları bir şey haqlasa onlar Səhabələrin yolu ilə gedərək,onları örnək alarlar.Ardıcıllar Səhabələrə dəstək olub,kömək etdilər,onların dininə,prinsiplərinə bağlı oldular,onlara qarşı eyni fikirdə olub,onları heç nədə qınamadılar. (“Səhifə Səccadiyyə” səh 13,Dua 4)

İmam Həsən əl Əsgəri öz təfsirində yazır: “Allahla danışan Musa (ə) ondan soruşdu: “Başqa Peyğəmbərlərin səhabələri arasında mənim səhabələrim kimi sənin qatında hörmətli olanı varmı?
Allah Təala dedi: “Ey Musa.Bilmirsən ki,Muhəmməd (s.a.s)-in səhabələrinin fəziləti o Peyğəmbərin digər peyğəmbərlərdən üstünlüyü kimidir.” (“Həsən əl Əsgərinin təfsiri” səh 65; “Burhan” c.3,səh 228; “Biharul Ənvar” c.13,səh330)

Üsamə ibn Zeyddən rəvayyət olunur: “Mən Peyğəmbər (s.a.s)-in yanına gələrkən,səhabələr onun ətrafında sanki,başlarına quş qonmuş kimi oturmuşdular.” (Məclisi “Biharul Ənvar”c.17,səh 32)

Urvə ibn Məsudu Qureyşlilər bir dəfə Rasulullah (s.a.s)-in yanına göndərmişdilər.O,onların yanına qayıtdıqda Qureyşə dedi: “Ey Qureyş camaatı.Mən padşah Xosrovun,kral Nəcaşinin yanlarında olmuşam.Lakin,Muhəmmədin səhabələri kimisini heç yerdə görməmişəm” (Məclisi “Biharul Ənvar”c.17,səh 32)

Ənəs Peyğəmbər (s.a.s)-in yanında bərbər onun saçlarını qırxarkən,ətrafdakıların onun saçlarını necə hərarətlə almağa,əldə etməyə çalışdıqlarını gördüyünü rəvayyət edib. (Məclisi “Biharul Ənvar”c.17,səh 32)

Muğirədən rəvayyət olunur ki,Peyğəmbər (s.a.s)-in səhabələri onun qapısını dırnaqları ilə döyürdülər. (Məclisi “Biharul Ənvar”c.17,səh 32)

Bəra ibn Əzibdən rəvayyət olunur: “Mən Rasulullah (s.a.s)-dən sual soruşmaq istədim.Lakin,ondan çəkindiyimə görə sualımı bir neçə il gecikdirdim.Sonra O dedi: “Peyğəmbər (s.a.s)-ə hörmət etmək O sağ olarkən və ölümündən sonra da lazımdır.Bu ehtiram onun adı çəkiləndə,onun hədisi,sünnəsi,həyatı xatırlandıqda,ailəsi,qohumları

və səhabələri ilə davranış zamanı onlara ehtiram göstərməklə olur.” (Məclisi “Biharul Ənvar”c.17,səh 32)

əl-İmam əl Mehdi “Yəvaqit əs-Siyər” kitabında rəvayyət edir ki, “Əbu Bəkr öldukdə, Əli (r.a) dedi: “Allah səndən razı olsun! Allaha and olsun ki, insanlara qarşı rəhimli və mərhəmətli idin!” (Bunun bənzərini İbn Sad “ət-Tabəqat əl-Kubra”da (3/171), Əhməd “Fədail əs-Sahabə”də (səh 112,178) və əl-Aşari “Fədail əs-Siddiq”də (səh 6) rəvayyət etmişdir.

Kəbb ibn Ucradan gələn rəvayyətdə deyilir: “Bir dəfə Mühacirlər,Ənsarlar və Haşim oğulları Rasulullah (s.a.s)-in hüzurunda mübahisə edərək soruşdular: Bizim hansımızı daha öndə sayır və sevirsən?
Peyğəmbər (s.a.s) buyurdu: “Ey Ənsarlar! Sizə onu deyə bilərəm ki,mən sizin qardaşınızam.” Ənsarlar: “Allahu Əkbər.Kəbənin Rəbbinə and olsun ki,biz apardıq.Sonra dedi: “Ey Mühacirlər! Sizə isə onu deyə bilərəm ki,mən sizlərdənəm.Onlar: “Allahu Əkbər.Kəbənin Rəbbinə and olsun ki,biz apardıq.” Sonra yenə buyurdu: “Ey Haşim oğulları!Siz isə həm məndənsiz,həm də mənim üçünsüz.”
Beləliklə bizim hamımız Rasulullah (s.a.s)-dən razı halda ona qibtə edərək ayağa qalxdıq.” (“Mənaqib” c.3,səh 331; Məclisi “Biharul Ənvar”c.22,səh 312)

Əbu Səid Xudridən rəvayyət olunur: “Mən Peyğəmbər (s.a.s)-in belə dediyini eşitmişəm: “Mən özümdən sonra sizə iki şey buraxıb,gedirəm.Lakin,onların biri digərindən daha böyükdür....Sonra dedi: “Şübhəsiz ki,mənim Əhli Beytim bağrıma basdığım gözümdür.Ənsarlar isə mənim qalxanımdır.Onlardan xəta edəni bağışlayın,yaxşı işlər görənlərə isə yardımçı olun.” (Məclisi “Biharul Ənvar”c.22,səh 311)

Ömər ibn Xəttab (r.a) Bədr qazilərindən olan Hatib ibn Bəltənin boynunu onun Məkkəlilərə xəbər göndərməsinə görə vurmaq istərkən Peyğəmbər (s.a.s) ona israrla mane olub dedi: “Ey Ömər! Sən nə bilirsən,bəlkə Allah Bədr əhlinə baxıb,onları bağışlayaraq buyurmuşdur ki,”Nə istəyirsinizsə edin.Artıq mən sizin günahlarınızı bağışlamışam.” (Məclisi “Biharul Ənvar”c.21,səh 22)

İbn Abbas səhabələr baradə deyir: “Həqiqətən Allah Təala Muhəmməd (s.a.s)-i elə səhabələrlə dəstəklədi ki,onlar onu öz canlarından və mallarından çox sevdilər və onun yolunda hətta,o özü orda olmasa belə canlarından keçdilər.Allah Təala onları belə vəsf edir: “Onlar öz aralarında mərhəmətlidirlər.”Bundan başqa Səhabələr dinin vacibatlarını yerinə yetirdilər,müsəlmanları məsələlərin həlli üçün alimlərə müraciət etməyə çağırdılar ki,nəticədə fikir və baxışlarda ixtilaflar azaldı və Allahın rəhməti bərqərar oldu....” (Məsudi “Muruc əz Zəhab” “Qızıl göllər” c.3,səh 52-53)

Zeyd ibn Əliyə (İmam Zeynəlabiddinin oğlu) sual verdilər: ”Allah səni əhv etsin.Əbu Bəkr və Ömər baradə nə deyirsən?
Cavab verdi: ”Allah onları əhv etsin.Mən qohumlarımdan və babalarımdan onlar haqqında xeyirdən başqa bir söz eşitmədim.” (“Qiyamlar” Səid Muhəmməd Həsən Kəşani səh 181,Qum 2005)

İmam əl Murtəza İlm əl Huda kitabında İmam Cəfərdən,o da atasından nəql edir ki,Qureyşlilərdən bir nəfər Möminlərin əmiri Əli (r.a)-a dedi: “Mən sənin çıxışlarında eşidirəm ki,deyirsən: “Ey Rəbbim! Bizi Raşidi Xəlifələrini islah etdiyin kimi islah et.” Onlar kimlərdir?
Əli (r.a) cavab verdi: “Mənim sevdiklərim və sənin babaların Əbu Bəkr və Ömər.Onlar ki,Peyğəmbər (s.a.s)-dən sonra örnək alınacaq insanlardır.Onlar Qureyşdən olan rəhbərlər,yolgöstərən və İslamın şeyxləridir.Kim onların yolu ilə getsə qorunar,kim onların məsləhətlərinə qulaq assa doğru yola yönəlmiş olar.” (Tusi “Təlxis əş Şafi” c.2,səh 428)

İbn Abbas Əbu Bəkr baradə xatirələrində deyir: “Allah Əbu Bəkrə rəhmət etsin.Allaha and olsun ki,O kasıblara qarşı şəfqətli idi.Quran oxuyar,pis işlərdən çəkindirər,Allahdan qorxar,yaxşı işləri əmr edər,gecə yarı ibadət edər, gündüzlər isə oruc tutardı.O,təqvada və təvazökarlıqda yoldaşlarını qabaqladı.Dünya nemətlərinə göz dikmədən insanları idarə etdi və bu işdə təvazökarlıqdan ayrılmadı. (“Nəsux Təvarix” c.5,kitab 2,səh 143-144)

İmam Həsən (r.a) Peyğəmbər (s.a.s)-dən hədis danışarkən Əbu Bəkr baradə dedi: “Əbu Bəkr mənim üçün mənim eşidən qulağımdır” (“Uyun əxbarul Rida” c.1,səh 313; “Kitabul məanil əxbar” səh 110)

İmam Həsən (r.a) Müaviyyə ilə bağladığı sazişdə bu şərtləri irəli sürür: “İnsanları Quran,Sünnə və Raşidi Xəlifələrin sünnəsi ilə idarə edəcəksən....” (“Kəşful Ğummə” Ərdəbili,c.1,səh 570; “Biharul Ənvar” c.44,səh 64; “Muntaxil əməl” c.2,səh 212)

“Bir nəfər İmam Hüseyn (r.a)-dan soruşdu: “Əbu Bəkr və Ömər Peyğəmbər (s.a.s) zamanı onun yanında nə mövqedə,hansı dərəcədə idilər?”İmam əli ilə işarə edərək: “İndiki kimi yaxın idilər” (“Kitabuz zuhd” İbn Hənbəl №576,”Əbu Bəkrin zahidliyi” fəsli)

İmam Zeynalabiddin (r) buyurur ki,onun yanına İraqdan bir neçə nəfər gəlmişdi.Onlar Əbu Bəkr,Ömər,Osman (r.a) haqqında pis sözlər danışırdılar.Onlar sözlərini qurtartıqdan sonra İmam üzünü onlara tutaraq dedi: “Deyin görək.Siz öz mülkünü və vətənini Allah və onun rizası üçün tərk edib hicrət edənlərdənsinizmi? Onlar dedilər: “Xeyr”.
İmam dedi: “Bəlkə siz “Onlardan (mühacirlərdən) əvvəl (Mədinədə) yurd salmış və (Muhəmməd əleyhissəlama qəlbən) iman gətirirmiş kimsələr (ənsar) öz yanlarına (şəhərlərinə) mühacirət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd (qəzəb) duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar.”-dansınız?
Onlar dedilər: “Xeyr”
İmam dedi: “Əgər siz bu qruplardan hər hansı birinə aid olmadığınızı deyirsinizsə,onda mən şəhadət verirəm ki,siz Allahın buyurduğu bu kimsələrdən deyilsiniz.
“Onlardan (mühacirlərdən və ənsarlardan) sonra gələnlər belə deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş (din) qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə (həsədə) yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətlisən, mərhəmətlisən!" (Həşr 10)
(“Kəşful Ğummə” Ərdəbili,c.2,səh 78; “Camiul əhkamil Quran” c.17,səh 225-226)

İmam Əbu Cəfərdən soruşmuşlar ki, qılıncı bəzəmək olarmı? O demişdir ki, olar, Əbu Bəkr Siddiq öz qılıncını gümüşlə bəzəyərdi. Soruşan adam ona demişdir ki, sən də ona “Siddiq” deyirsən? Imam yerindən dik atılmış və demişdir: “Bəli, Siddiq deyirəm, bəli Siddiq deyirəm. Kim ona Siddiq deməsə, Allah onun sözünü bu dünyada və axirətdə təsdiqləməz”
(“Kəşful Ğummə” Ərdəbili,c.2,səh 147,360)

Əbu Abdullahdan Əbu Bəkr və Ömər baradə soruşduqda o dedi: “Onlar hər ikisi ədalətli rəhbərlər və haqqın tərəfdarları idilər.Bu halda da dünyadan köçdülər.Allahın mərhəməti Qiyamət gününə qədər onların üzərində olsun.” (“İhqaqul haqq” Şustari, c.1,səh 16)

İmam Sadiq öz babalarından, Əlinin (r.a)-ın belə dediyini rəvayyət edir: “Sizə peyğəmbərinizin səhabələrini söyməməyi vəsiyyət edirəm.
Onlar Peyğəmbərdən (s.a.s) sonra hec bir yenilik etməmiş, yenilik edənlərə də sığınmamışlar. Allahın Rəsulu onlara qarşı xeyirxah olmağı vəsiyyət etmişdir.”
(“Biharul Ənvar” c.22,səh 305)

İmam Musa ibn Cəfər demişdir: “ Rasullullah (s.a.s) belə buyurmuşdur:
“Mən səhabələrim ücün əmin-amanlığam. Mən dünyamı dəyişsəm səhabələrimə vəd olunan yaxınlaşar. Səhabələrim isə ümmətim ücün əminamanlıqdır.Səhabələrim

dünyalarını dəyişdikdə ümmətimə vəd olunan yaxınlaşar. Nə qədər ki, aranızda məni görənlər var bu din digər dinlər
üzərində zahirdə olacaqdır” (“Biharul Ənvar” c.22,səh309; “Navadir ər-Ravandi” səh.23)

Əsbab ibn Nəbata rəvayyət edir ki,bir dəfə Dirar ibn Damra ən Nəhşəli Müaviyyə ibn Süfyanın yanına daxil olanda Müaviyyə ona dedi: “Əlini mənim üçün vəsf et.Dirara dedi: “Məni sərbəst buraxacasanmı?”
Müaviyyə dedi: “Yox,əvvəlcə onu mənim üçün vəsf et.”
Dirara dedi: “Allah Əliyə rəhmət eləsin.Allaha and olsun ki,o bizim aramızda bizlərdən biri kimi idi.Yanına gəldikdə bizi öz yanına buraxar,sual verdikdə sualımıza cavab verər,onu ziyarət etdikdə bizi öz yanına buraxardı.Bizim üzümüzə onun qapısı bağlanmaz,bizimlə onun arasında heç bir maneə olmazdı.Allaha and olsun ki,biz ona yaxın olmağımıəza baxmayaraq,heybətindən dolayı onu danışdırmaz,əzəmətli olmasına görə başlamağa cürət etməzdik.O,səf-səf,mirvari kimi təbəssüm edərdi.
Müaviyyə dedi: “Biraz da vəsf et.”
Diara dedi: “Allah ona rəhmət eləsin.Allaha and olsun ki,o çox vaxt gecələr yuxusuz qalar,az yatar,gecə və gündüz vaxtlarında Allahın kitabını oxuyardı.
Bunu eşitcək Müaviyyə ağlamağa başladı və dedi: Kifayətdir ey Dirarə.Əli həqiqətən də sənin vəsf etdiyin kimi idi.Allah Əbul Həsənə rəhmət etsin.” (“Biharul Ənvar” c.14,səh 41; “Əməlis saduq” səh 624)

İmam Musa ibn Cəfər öz babalarından rəvayyət edir ki,Peyğəmbər (s.a.s) demişdir: “Dörd dövr vardır: “Birinci ən əfzəl olan mənim dövrüm,sonra ikinci dövr,sonra üçüncü dövr.Dördüncü dövr gəldikdə isə kişilər kişilərlə,qadınlar qadınlarla görüşəcək.Allah Təala öz kitabını Adəm övladının qəlbindən siləcək və onlara qara bulud göndərəcəkdir.Sonra özündən başqa hamını məhv edəcəkdir.” (“Biharul Ənvar” c.22,səh309)

Əbu Abdullah demişdir: “Peyğəmbər (s.a.s)-in səhabələrinin sayı on iki min idi.Onların səkkiz mini Mədinədən,iki mini Məkkədən,iki mini isə müxtəlif yerlərdən idi.Onların arasında heç vaxt qədəri,mürciə,haruri,mötəzilə və ya rəy əhli olmamışdır.Onlar gecə-gündüz ağlayaraq belə deyərdilər: “Ey Rəbbimiz.Təzə çörək dadmamışdan öncə bizim ruhumuzu al.” (Səduq “Xisal” c.2,səh 639;“Biharul Ənvar” c. 22,səh 305)

Mənsur ibn Hazim rəvayyət edir ki,mən Əbu Abdullaha dedim: “Bu necə olur ki,mən sənə sual verdikdə,mənə bir cür cavab verirsən,başqası gəlib sənə həmin sualı verdikdə ona başqa cür cavablandırırsan.?
İmam dedi: “Biz suala insanın səviyyəsinə görə cavab veririk.Mən dedim: Elə isə mənə xəbər ver görüm,Rasulullah (s.a.s)-in səhabələri onun adından doğru danışıblar,yoxsa yalan?
Cəfəri Sadiq dedi: “Məgər bilmirsən ki,biri Rasulullah (s.a.s)-in yanına gəlib sual verdikdə bir cür cavab verirdi,sonra həmən sualın hökmünü qüvvədən salan başqa

cavab verirdi? Hədislərdə bir-birini nəsh edirlər.”(“əl Kəfi” c.1,səh 65;”Biharul Ənvar” c.2,səh 228)

Məclisi yazır: “Əgər bir günahla insanın adilliyi gedirsə,ixtilaf yoxdur ki,tövbə ilə onun adilliyi geri qayıdır.Bəziləri bunun üzərində icma olduğunu demişlıər.” (“Biharul Ənvar” c.85,səh 30)

Seyyid Əbul Qasim Xoyi yazır: “Günah etməklə insanın adilliyi aradan qalxmış olur.Peşmançılıq hissi keçirib,tövbə etməklə isə geri qayıdar.Bu məsələdə böyük günah ilə kiçik günah arasında heç bir fərq yoxdur.” (“Minhəcus salihin” c.2,səh 12)

İmam Rza babalarından rəvayyət edir: “Peyğəmbər (s.a.s) buyurdu: “Allahım mənim xəlifələrimi bağışla.Ona üç dəfə dedilər: “Ey Allahın Rəsulu!Sənin xəlifələrin kimlərdir? O dedi: “Onlar məndən sonra gəlib,mənim sünnəmi və hədislərimi rəvayyət edib,onları gələcək nəsillərə ötürənlərdir.” (“Biharul Ənvar” c.2,səh 144)

Kuleyni “Kafi”də hədis gətirir: Burada deyilir: “Əbu Bəkr vəfat edəndə ona sual verdilər: “Nəyi vəsiyyət edirsən?” O,cavab verdi: “Malımın 1/5-i miras buraxıram.Beləki,bu kifayətdir.Çünki,Allah özü 1/5 ilə razıdır.Beləcə O yalnız 1/5-i miras qoydu.Amma,Allah ona ölənə qədər malının 1/3-ü nəsib etdi.Əgər O bilsəydi ki,malın 1/3-ü onun üçün daha yaxşıdı,onu miras qoyardı.Ondan sonra bu xüsusiyyətdə üstün olanlar Salman və Əbu Zərrdir……” (“Kafi” c.5,səh 68)

Ərdəbili “Kəşful Ğummə”-də Əbu Abdullahdan nəql edir: “Əbu Bəkr məni iki dəfə dünyaya gətirib.” (Ərdəbili “Kəşful Ğummə” c.2,səh 161)

“Beləki,İmamın anası Umm Fərva Qasim ibn Muhəmməd ibn Əbu Bəkrin qızı idi.Umm Fərvanın anası isə Əsma bint Abdurrəhman ibn Əbu Bəkr idi. “ (Növbəxti “Firəquş şia” səh 78)

Seyyid Murtəza İmam Cəfərdən rəvayyət edir ki,İmam Peyğəmbər (s.a.s)-in qəbrinin yanından keçərkən onunla bərabər yanındakıları da salamlayardı.”(“Kitabuş şafi” səh 238; “Nəhcul Bəlağanın şərhi” c.4,səh 148)

Həsən Əsgəri təfsirində hicrət hadisələrindən danışarkən deyir: “Peyğəmbər (s.a.s) Əli (r.a)-a yatağına uzanmasını buyurduqdan sonra Əbu Bəkr (r.a)-a dedi: “Mənimlə olmaq,getmək istədiyim yerə getmək və mənim yolumda əziyyətlərə düçar olmaq istəyirmisən ey Əbu Bəkr?
Əbu Bəkr dedi: “Ey Allahın Eıçisi.Əgər mən Qiyamət gününə kimi yaşamış olsaydım və əziyyətlərə düçar olsaydım,amma bundan ölməsəydim,heç bir sevinc görməsəydim,bu mənim üçün sənə düşmən olan bütün ölkələrin hökmdarı olmaqdan daha yaxşı olardı.Məgər mən öz canımı,mülkümü və övladlarımı sənin yolunda fəda etmərəmmi? Peyğəmbər (s.a.s) dedi: “Şübhə yoxdur ki,Allah sənin qəlbində olanları bildi və bunu dediklərinə bərabər qıldı və səni mənim üçün ən yaxın yoldaş,məni əvəz edən eşidən qulaq,görən göz,baş,bədən və qəlb etdi.” (“Həsən əl-Əsgərinin təfsiri” səh. 164-165)"

Kufə camaatı İmam Zeyd ibn Zeynəlabiddinə dedilər: “Allah sənə rəhm eləsin.Əbu Bəkr və Ömər haqqında nə deyirsən?
İmam dedi: “Mən onların ünvanına yaxşı sözlərdən başqa heçnə deyə bilmərəm.Çünki,öz ailəmdən onların haqqında heç bir pis söz eşitməmişəm.Onlar bizim və digər insanların haqqını pozmadılar,Quran və Sünnə ilə hərəkət etdilər.” (“Nəsxu tarix” c.2,səh 590;“Qiyamlar”-Kəşani səh 181,Əndişei Hadi nəşr;2005)

Salman Farsi (r.a) deyir: “Peyğəmbər (s.a.s) öz səhabələrinə deyərdi: “Əbu Bəkr sizi namaz və orucla deyil,qəlbindəki ixlasla,səmimiyyətlə keçdi.” (Şuştari “Məcalis muminin” səh 89)

Peyğəmbər (s.a.s) Əbu Bəkrə Bədr günü müşriklər tərəfində vuruşan yaxşı silahlanmış Əbu Bəkrin oğlunu öldürməməyi buyurdu və dedi: “Qılıncını gizlət və yerinə qayıt ki,sənin bizimlə bərabər olmağından zövq alaq.” (Ərdəbili “Kəşful Ğummə” c.1,səh 190)

“Ömər və Ruqiyyə Əlinin Təqlub qəbiləsindən Səhba adlı cariyyədən olan övladlarıdır.O,Əbu Bəkrin Xilafəti zamanı Xalid ibn Vəlidin rəhbərliyi ilə Riayn ət Təmr döyüşündə döyüşündə əsir olaraq götürülmüşdü.” (“Şərh Nəhcul Bəlağa” c.2,səh 718; “Umdətul Talib” səh 361)

Bu kəniz Əliyə hədiyyə olaraq verilmişdi.

“Onun adı Ummu Həbib bint Rəbiyyə idi” (Mufid “İrşad” səh 186)

“Bundan başqa Əbu Bəkr Əliyə Yəməmə döyüşündə əsirlərlə bərabər götürülən Hallu bint Cəfər ibn Qeysi hədiyyə etmişdi.O,Əliyə Həsən və Hüseyndən sonra ən xeyrli olan övladı Muhəmməd ibn Hənəfiyyəni dünyaya gətirdi.” (“Umdətul talib” fəsil 2,səh 352; “Haqqul yəqin” səh 213)

Küleyni Əbu Bəsirin belə dediyini rəvayyət edir: “Mən Əbu Abdullanın yanında idim. Bu vaxt Ümm Xalid onun (yəni Əbu Abdullanın) yanına girməyə icazə istədi. Əbu Abdullah mənə dedi: “Sən onun nə dediyini eşitmək istərdinmi?” Mən dedim: “Bəli”. O, qadına daxil olmağa icazə verdi və məni öz yanında xalçanın üstündə əyləşdirdi. Sonra qadın daxil oldu və danışdı. Mən gördüm ki, o, bəlağətli xanımdır. Qadın ondan: “Mən Əbu Bəkr və Ömərin xəlifəliyini qəbul edib, onları sevə bilərəmmi?” İmam: “Bəli, qəbul edə bilərsən”. Qadın: “Mən Rəbbimin hüzurunda olduğum zaman "Bunu sən mənə əmr etdin" deyə Ona xəbər verə bilərəmmi?!” deyə soruşduqda, Cəfər Sadiq ona: "Bəli" deyə cavab verdi.”(Küleyni “Kitab ər-rövzə”, səh 29, Hindistan çapı; başqa nəşrdə “ər Ravzə minəl Kəfi” c.8,səh 101,238)

Əl Hüseyn ibn İsmailidən,o da Mahmud ibn Hadadən,o da Əsbat ibn Muhəmməddən,o da Ömər ibn Qeys əl Maliidən: “Mən Cəfər ibn Muhəmməddin (Cəfər Sadiq)-in belə dediyini eşitmişəm: “Allah Təala Əbu Bəkr və Ömərdən uzaq olanlardan uzaqdır.” Zəhəbi davamında yazır: “Deyirəm ki,Cəfər Sadiqdən olan bu xəbər təvatürdür səviyyəsindədir.” (Zəhəbi “Siyər aləmun nubulə” c.6,səh 260)

Şamlıları söyən ordusunun əsgərlərinə Əli (r.a) deyir: “Mən sizin söyüşcül adamlar olmağınızdan xoşlanmıram.Lakin,siz onların əməllərini vəsf etsəniz və hallarını zikr etsəniz bu söz cəhətindən daha haqqlı və üzr cəhətindən daha yaxşı olardı.
Onları söymək yerinə onlar haqqında belə deyin:”Allahım.Onların da bizim də qanlarımızı qoru.Onlarla bizim aramızı islah et.Onları əyri yoldan döndər və onları hidayətə yönəlt ki,bilməyən haqqı tapsın və düşmənçilik edəndə yolundan dönsün.” (“Nəhcul Bəlağa” 206-cı xütbə (suffuh salih nüsxəsi,Muhəmməd Abduhun nüsxəsində isə 204-cü xütbə)

Əli (r.a) Siffin döyüşü ilə bağlı demişdi: “İşimizin əvvəlində biz Şam əhli ilə zahiri görünüşdə Rəbbimizin bir,Peyğəmbərimizin bir və İslamda təbliğ üsulumuzun eyni olduğu halda qarşılaşdıq.Biz onlardan Allaha və onun Peyğəmbərinə imanlarını artırmalarını istəmirdik.Onlar da bizdən bunu istəmirdilər.İş bərabər və yeksan idi və Osmanın qanı məsələsindən başqa aramızda heç bir ixtilaf və fikir ayrılığı yox idi.Biz həmin işdən uzaq və kənar idik....”
(Nəhcul Bəlağa 58-ci məktub, suffuh salih nüsxəsi,Muhəmməd Abduhun nüsxəsində 543-cü səh.)

Xaricilər Əlinin (r.a) yanına gəlib Osmandan (r.a.) şikayət edəndə, o Osmanın (r.a) yanına gəlib, belə demişdir: “Arxamdakı adamlar məni səninlə özləri arasında səfir etmişlər. Allaha and olsun ki, bilmirəm sənə nə deyim. Elə bir iş yoxdur ki, mən bilim, sən yox. Biz nəyi bilirik, sən də bilirsən. Bir şeydə səndən irəlidə deyilik ki, sənə onun haqqında məlumat verək. (Bu sözlər Əlinin (r.a.) çox təvazökar olduğuna daha bir sübutdur.)
“ Səndən bir şey də gizlətməmişik ki, indi onu sənə çatdıraq. Sən bizim gördüklərimizi görmüsən, eşitdiklərimizi də eşitmisən, sən də Allahın elçisinin (s.a.s.) səhabələrindən olmusan. Nə ibn Əbu Quhafə (Əbu Bəkr) nə də İbn Xəttab haqq işində səndən irəli deyillər.Sən Allahın elçisinin (s.a.s) atasına, qan qohumluğuna görə onların hər ikisindən də yaxınsan. Sən onun o biri iki kürəkəninin nail olmadığına nail olmusan.” Yəni, Peyğəmbərin (s.a.s.) iki qızını -Ruqiyyə (r.a.) və Ummu Gülsüm (r.a.) almısan. (“Nəhcul Bəlağə”, səh 234 (tərcümədə səh 169, Tehran çapı, 1995).

Əli (r.a)-ın beyəti

Muhəmməd Huseyn Təbatəbai yazır: “Birinci Xəlifə əksəriyyət Səhabələrin rəyi ilə xəlifə seçildi. (“İslam və Şiəlik”səh 66,2005-ci il,Xuda nəş.)

Əli (r.a) demişdir: “Əbu Bəkrə, Ömərə, Osmana beyət gətirmiş adamlar, onlara beyət gətirdikləri məsələdə mənə də beyət gətirmişlər. Onlarda qayda belə idi ki, orada iştirak edən adam özü istəyəni seçə bilməz, o zaman orada olmayan isə seçilmiş adamı rədd edə bilməzdi. Yalnız mühacirlərin və ənsarların şurası bir adam haqqında eyni fikirdə olub, onu imam adlandıranda, Allahın bu işə razılığı əlaməti sayılardı. Əgər bir nəfər tənə edərək və ya bidətlə onların işindən özünü kənara çəksəydi, onu fikrindən daşındırardılar. Etiraz etsəydi, möminlərin yolu ilə getmədiyi üçün ona qarşı üsyan edərdilər və Allah da ona layiq olduğunu verərdi.” (“Nəhcu-l-Bəlağə”, səh:366-367 (tərcümədə səh. 298, Tehran çapı, 1995,6-cı xütbə)

İbn Əbil-Hədid "Nəhcul-Bələğə" əsərinin şərhində nəql edir ki, Əbu Bəkrin xəlifə seçilməsinin səbəbi soruşulduqda Həzrəti Əli belə cavab vermişdir:

"Biz insanlar içində bu işə ən layiq olanın Əbu Bəkr olduğunu düşünürdük.Çünki, O (Quranda zikr olunmuş) mağara yoldaşıdır, iki nəfərdən ikincisidir və bir onun təcrübəsini də bilirdik və Allahın Elçisi sağ olduğu zaman ona namazda imam durmağı əmr etmişdi."
("İbn Əbil Hədid "Şərhu Nəhcil Bələğa”, c.1,səh 332)

Əli (r.a) dedir:”Ey camaat! Bu iş (İmamət) İmamət üçün bacarıqlı,Allahın buyruqlarını daha yaxşı bilən kimsə haqqdır.Belə olan təqdirdə əgər bir kimsə,ixtişaşçı fitnə salmaq istəsə haqqa qaytarılar.Əgər haqqa boyun əyməkdən uzaqlaşsa onunla müharibə edilər.And olsun İmam və Xəlifə təyin etmək üçün bütün insanların iştirak etməsi şərt olsa belə aydındır ki,bu olması iş deyildir.Axı hamını bir yerə cəm etmək olmaz.Bu iş üçün layiqli adamlar toplaşar və Xəlifəni seçərlər ki,başqaları onların seçdiyini qəbul etməlidirlər.Orada hazır olanlar səsini,sözünü geri götürə bilməz.Orada olmayan da başqa şəxsi seçə bilməz.”
(Nəhcul Bəlağa,suffuh salih nüsxəsi,173-cü xütbə,Muhəmməd Abduhun nüsxəsində isə 171-ci xütbə)

İmamətin İlahi əmrlə olduğunu guya iddia edən şəxs belə sözlər deyə bilərmi?

Əli (r.a) deyir: “Müsəlmanlar Peyğəmbər (s.a.s)-in vəfatından sonra özlərindən birini seçdilər.O,müsəlmanları müxtəlif yollarla bir-birinə yaxınlaşdırdı,qorxu və zülmü aradan qaldırdı.” (Meysəm Bəhrani “Şərh Nəhcul Bəlağa” səh 400)

Həmçinin Əli (r.a) xəlifə olmağa istəmirdi. Osman (r.a)-nın vəfatından sonra, cəmaat ona be`yət etmək istəyəndə, Əli (r.a) dedi: “Məndən əl çəkin, başqasını axtarıb tapın. Çünki, elə bir işə yönəlmişik ki, cürbəcur yolları var, növbənöv rəngləri var. Könüllər bu işdə qərar tuta bilməz, ağıllar bu işin ağırlığına davam gətirə bilməz. Dan yerini başdan-başa məcazi qara bulud tutmuş, açıq-aydın yol görünməz olmuşdur.
Bilin ki, istədiyinizi qəbul etsəm, daha yaxşı bildiyimə uyub gedərəm, nə söyləyənin sözünə fikir verərəm, nə eyib tutanın sözünə qulaq asaram. Amma məndən əl çəksəniz, sizlərdən biriniz kimi olaram. Kimi iş başına gətirsəniz, kimi özünüzə qulluq sahibi etsəniz, o buyruğu sizdən daha artıq dinlərəm, əmrinə sizdən artıq uyaram. “Mənim sizə vəzir olmağım, əmir olmağımdan daha xeyirlidir”.
(“Nəhcul-bəlağa”, “Xilafət dövrü, Cəməl döyüşü və Cəməldən sonra” başlığı altında, “Osmandan sonra Ona bey`ət etmək istəyənlərə buyurdu” xütbəsinə səh 136)

Həmçinin Əli (r.a) digər xütbəsində belə buyurmuşdu: “Vallah xilafətə rəğbətim və hökm etməyə həvəsim yoxdur. Bu iş üçün siz məni çağırdınız, bu yükü üzərimə siz yüklədiniz.” (“Nəhcul-bəlağə”, səh 225, 205 -ci xütbə. Mubahilə çapı, Baki 2006).

Heç Allah tərəfindən təyin olunmuş, müsülmanların başçısı, belə söz deyər?

Ayətullah Cəfər Sübhani Azərbaycan dilində, “Əl huda” tərəfindən, 2005 ildə nəşr olunan “İslam tarixı” kitabının, 332-333 səhifələrdə yazır: “Osmanı öldürdükdən sonra Həzrət Əli (ə) muhacir və Ənsarın əksəryətinin israrı ilə xilafətə seçildi. O, əvvəlcə bu vəzifəni qəbul etmək istəmədi, lakin mühacir və Ənsarların israrından sonra bu vəzifəni ələ aldı”.
Şiələr deyirlər peyğəmbərləri təyin etdiyi kimi, Allah imamlarıda təyin edir. Bu nə məsələdir ki Əli (r.a) Allahın əmrinə uymur? Allah onun əmr sahibi, imam olmasını istədi. Amma, Əli (r.a) istəmədi?!! Və yalnız insanların israrından sonra bunu qəbul etdi!!”

Əli Murtəza Peyğəmbər (s.a.s)-in bibisi oğlu Zübeyr ibn Əvvam (r.a)-in dilindən nəql edir: “Biz hesab edirdik ki,Əbu Bəkr rəhbər olmağa daha layiqdir.Çünki,O Peyğəmbər (s.a.s)-in mağara yoldaşı olub.Biz Peyğəmbər sünnəsini bilirik.Peyğəmbər (s.a.s) hələ sağlığında Əbu Bəkrin arxasında namaz qılmağı bizə tapşırdı.” (İbn Əbil Hədid “Şərh Nəhcul Bəlağa”c.1,səh 332)

Əli (r.a) deyir: “Faruq öldürüləndə O məni altı nəfər namizəddən biri etdi.Mən şura üzvlərindən idim.Mən müsəlmanların sözlərinin bütövlüyünü pozmaq və qırmaq istəmədim.Siz də mənim kimi Osmana beyət etdiniz.” (Tusi “Əməli” c.2,cüz18,səh 121)

Həmçinin Əli (r.a) deyir: “Siz bilirsiz ki,mən buna başqasından daha layiqəm.Lakin,Allaha and olsun ki,mən müsəlmanların istənilən qərarı ilə razılaşacam.Bununla yalnız səyləri və üstünlükləri olanlara haqqsızlıq edilmiş olar.” (“Nəhcul Bəlağa” Subki Saleh tədqiqi ilə səh 102)

İbn Əbil Hədid öz şərhində yazır: “Abdurrahmən ibn Auf Əliyə dedi: “Beyət et.Əgər etməsən qeyri müsəlmanların izlədikləri yolu getmiş olacaqsan....”Əli dedi: “Siz axı bilirsiz ki,mən buna başqalarından daha layiqəm...Sonra əlini uzatdı və beyət etdi.” (“Nəshu təvarih” c.2,kitab 2,səh 449)

Əli (r.a) can üstə olanda ondan soruşdular: “Səndən sonra kim Xəlifə və rəhbər olacaq?” Əbu Vail və Hakimin rəvayyətinə görə Əli ibn Əbu Talibdən soruşurlar: “Bizə öz varisini göstər.”Əli (r.a) dedi: “Peyğəmbər (s.a.s) bizə heç kimi buraxmadı,mən niyə kimisə varis buraxmalıyam. “Əgər Allah Təala onlar üçün xeyir istəsə onları Peyğəmbərdən sonra yaxşı adamın ətrafında topladığı kimi toplayacaqdır.” (Tusi “Təlxis əş Şafi” c.2,səh 372)

Bu hədisi İmam Hakim “Müstədrək” əsərində gətirmişdir və qeyd etmişdir ki,hədisin ravilər silsiləsi səhihdir.

Yəqubinin “Tarix”,Məsudinin “Muruz əl Zəhəb”,İmam Əlinin Nəhcul Bəlağəsində göstərilir ki,Osmanın qətlindən sonra müsəlmanlar Əlinin yanına gedib,soruşmuşlar: “Sənin xəlifəliyin ilə bağlı Peyğəmbərin əhdi olubmu? İmam Əli dedi:”Məndə Peyğəmbərin əhdi olmasına gəlincə,belə bir əhd olmayıb.Lakin,adamlar Osmanı öldürdükdə öz vəziyyətimi götür-qoy etdim.
Osmandan əvvəlki iki xəlifə,Peyğəmbərin əhdinə sadiq olanlar da həlak oldular.Osman müsəlmanların məşvərəti ilə xəlifə olmuşdu.Lakin,o da qətlə yetirildi. (Məsudi “ Murucuz zəhəb c.2,səh 425)

Əli (r.a) deyir: “Biz Allahın qədəri ilə razıyıq və işlərimizdə ona təvəkkül edirik.Mən nə edəcəyimi düşündüm və qərara gəldim ki,mənə beyət etməmiş birinci beyət etməliyəm.Çünki,başqasına beyət etmə öhdəliyi artıq mənim üzərimdə idi.” (“Nəhcul Bəlağa” səh 81)

Əli (r.a) deyir: “Mən onda Əbu Bəkrə gedib,ona beyət etdim və yalanı məhv edən hadisələrdə iştirak etdim.Beləcə Allahın kəlamı kafirlər istəməsədə ucaldı.Əbu Bəkr bütün işləri ələ alıb,onları səhmana saldı.Hər kəsin haqqını verib,özünə yaxınlaşdırdı və qənəatçil oldu.Mən ona tövsiyyələr verib,Allahı razı salan işlərdə ona tabe oldum.” (“Hərrat” (axın) c.1,səh 307; fəsil: “Muhəmməd ibn Əbu Bəkrin öldürülməsindən sonra Əli (r.a)-ın Səhabələrə müraciəti”)

Əli (r.a) deyir: “Siz mənə məndən öncə olanlara verdiyiniz şərtlər ilə beyət etmisiniz.İnsanlar beyət edənə qədər seçim edə bilərlər.Beyət etdikdən sonra isə onlar bu hüququ itirirlər.” (“Nəshu Təvarix” c.3, cüz 2)

Əli (r.a) deyir: “Mən durdum və Əbu Bəkrin yanına gedib,ona beyət etdim….Əbu Bəkr vəzifə başına gələn kimi bu işlərlə məşğul oldu-hər kəsin haqqını verdi,müsəlmanların işlərini səhmana saldı,münaqişə edən tərəfləri barışdırdı və beytul maldan xərcləmələrdə qənaətcil oldu.Mən ona yoldaş oldum,məsləhətlər verdim.Onun Allahı razı qalacağı işlərində mən ona itaət etdim.” (“Məanarul huda” səh 373;”Nəshu təvarih” c.3,səh 532)

Əli (r.a) Cəməldə məğlub olanlarla görüşərək deyir: “Siz Əbu Bəkrə beyət edib,məndən üz döndərdiz,halbuki mən də siz kimi Əbu Bəkrə beyət etmişdim….Ömərə də sizin kimi beyət etmişdim və sözlərimdə sadiq oldum….Sonra siz mənim kimi Osmana da beyət

etdiz.Sonra mənə heç bir dəvət və məcburiyyət olmadan evimə gəlib,Əbu Bəkrə,Ömərə,Osmana beyət etdiyiniz kimi beyət etdiz.Kim sizə Əbu Bəkrə,Ömərə,Osmana olan beyətə sadiq olub,mənə olan beyəti pozmaq hüququ verib?". (Tusi "Əməli" c.2,səh 121)

Təbərsi Muhəmməd Baqirdən hədis gətirərək yazır: "..Üsamə məktub alır və adamları ilə birgə Mədinəyə dönür.İnsanları Əbu Bəkrin ətrafında toplanan görüb,Əlinin yanına gedir və soruşur: "Bu nədir?"
Əli (r.a) deyir: "Gördüyün kimi."
Üsamə soruşdu: "Sən beyət etdin?"
Əli (r.a) dedi: "Bəli" (Təbərsi "İxticac" səh 50)

Muhəmməd ibn Hüseyn Əli Kəşful-Qita yazır: "Peyğəmbər (s.a.s) bu dünyadan axirətə köçəndə Səhabələrin əksəriyyəti hesab etdi ki,Əli (r.a) ya yaşının az olmasına görə,yada Qureyşlilərin peyğəmbərlik və rəhbərliyin ancaq Haşim nəslində olmamasını istəmələrinə görə Xəlifə ola bilməz.....İnsanlar görəndə ki,birinci və ikinci Xəlifələr bütün səylərini tövhid kəlməsinin ucalmasına,ordunun hazırlanmasına,yeni torpaqların fəth olunmasına yönəldir,özlərinə heçnə götürmür və öz bildiklərini etmirlər onlara beyət edib,onları dəstəklədilər."
("Usulu şia və usuluxa" "Şiələrin və şiə məzhəbinin əsasları" səh 91)

Sual yaranır ki,niyə beyət bir neçə vaxt gecikdi.Bu suala İbn Əbil Hədid cavab verir:

"Sonra Əbu Bəkr qalxaraq insanlara müraciət etdi və üzr istədi.Allah bizləri bu beyətin şərrindən qorusun.Mən insanlar arasında olacaq fitnədən qorxdum.Allaha and olsun ki,mən bunda heç vaxt israr etmədim.Mən üzərimə gücüm çatmayacaq və məndə o gücün olmadığı öhdəliyi götürdüm.Mən çox istərdim ki,insanlardan güclü olan bir nəfər mənim yerimə bu işi alsın." Əbu Bəkr üzr istədi və mühacirlər onun üzrünü qəbul etdilər.
Əli və Zubeyr dedi: "Biz sadəcə şura zamanı bizim çağrılmamamıza görə incimişdik.Amma,biz Əbu Bəkri hamıdan daha çox bu işə layiq hesab edirik.Çünki,O Peyğəmbər (s.a.s)-in mağara yoldaşıdır və biz onu yaxşı tanıyırıq.Hələ Peyğəmbər (s.a.s) sağlığında ona müsəlmanlara camaat namazında İmam durmağı buyurmuşdu." (İbn Hədid"Şərh Nəhcul Bəlağa" c.1,səh 132)

İbn Əbil Hədid Abdulla ibn Əuf əl Xuzaidən rəvayyət edir: "Xalid ibn Səid ibn əl As Peyğəmbər (s.a.s)-in Yəməndəki köməkçilərindən idi.Peyğəmbər (s.a.s) vəfat etdikdə o Mədinəyə gəldi.İnsanlar artıq Əbu Bəkrə beyət etmişdilər.Xalid bir neçə gün gecikdi və beyət etmədi.Günorta vaxtı o Haşim oğullarına əynində bir köynək olan halda gələrək sual etdi: "Əgər siz razısınızsa biz də razıyıq.Yox,əgər siz razı deyilsinizsə biz də razı deyilik.Deyin görüm siz bu adama beyət etdinizmi?
Onlar: "Bəli" dedilər.
Əli onların hamısına dedi: "Siz razılaşırsız,yoxsa hamılıqla imtina edirsiz?"
Onlar dedilər: "Razıyıq"

Onda məndə razıyam və siz beyət etdinizsə,mən də beyət edirəm.Amma,Allaha and olsun ki,siz Bəni Haşim uzun ağaclara və yaxşı məhsul kimisiniz.” (“Şərh Nəhcul Bəlağa” c.1,səh 134-135)

Mühacir və ənsarlar gəlib Əli (r.a)-a dedilər: ”Əlini uzat,sənə beyət edək”deyərkən o əvvəl bir neçə dəfə bu təklifi rədd etmiş,sonra demişdir: ”Məni buraxın,bir başqasını seçin.Əgər sizin çağırışınıza cavab versəm,bildiyim işə baş qoşmuş olaram.Əgər siz məni tərk etsəniz,mən də sizlərdən biriyəm.Ola bilsin ki,mən sizin hakimiyyətə gətirdikləriniz içərisində başqalarının söylədiklərinə ən diqqətli,üzü yola birisiyəm.Mənim sizə vəzir,məsləhətçi olmağım əmir olmağımdan daha yaxşıdır.” Sonra o Təlhə,Zübeyrə üz tutub dedi: ”Əgər sizlərdən biriniz istəsə,mən sizə beyət edərəm.”Onlar dedilər: ”Yox adamlar səni istəyir.”Sonra Əli dedi: ”Əgər məni istəməyən varsa,beyətim sirr deyil.Bu ancaq müsəlmanların razılığı ilə olmalıdır.Kim mənə beyət etmək istəyirsə,qoy məscidə gəlsin.” (Murtəza ər Razi Əş Şafi səh 128,129)

İmam Əli ona qarşı üyan edən Müaviyyə baradə demişdir: ”Mədinə mənə beyət edərkən,sən Şamda qaldın.Halbuki,mənə beyət edənlər bir zaman Əbu Bəkrə,Ömərə,Osmana beyət edənlər idi.Burada iştirak edənlər seçim qarşısında olmadığı kimi iştirak etməyənlər də zorla gətirilməyib.Əgər mühacir və ənsarlar birləşib,bir nəfəri hakimiyyətə gətirməyə razılaşıblarsa,bu Allaha xoş gələn işdir. (Məclisi “Bihar” c.8,səh 555)

İmam Əli demişdir: ”İstəyirsiniz məni qoyub,başqasını özünüzə xəlifə edin.Bizim qəbul etdiyimiz bu işin müxtəlif cəhətləri vardır.Bilin ki,əgər sizin tələblərinizə cavab verə bilərəmsə,bunu ancaq sizinlə edə bilərəm.Əgər məni tərk etsəniz,heç kimin sözünü dinləyib,tənqidinə qulaq asa bilmərəm.Çünki,o zaman mən də adi bir insan,sizlərdən biri olaram.Siz məni bu işə təyin etdiyinizdən mən də sizi dinləyib,itaət göstərərəm.Mən sizin vəzirinizəm (“Nəhcul Bəlağa” səh 20)

Şiə məzhəbinin böyük alimlərindən sayılan ən-Nuri ət-Təbərisi deyir: "Qədr Xum günü, Peyğəmbər (s.a.s) özündən sonra Əlinin xəlifə olması haqqında açıq-aşkar bir söz qeyd etməmişdir. O, bunu ümumi məna daşıyan və bir neçə mənalarda müştərək olan bir ifadə ilə vurğulamışdır. Bu ifadənin hansı mənaya dəlalət etməsini araşdırıb təyin etmək lazımdır". (“Faslul Xitab”,səh 205-206)

Əbu Bəkrin Əhli Beytlə qohumluğu

İbn Əraba deyir: “İmam Cəfərin anası Umm Fərva bint əl Qasim ibn Muhəmməd ibn Əbu Bəkr və Ümm Fərvanın anası isə Əsma bint Əbdurrahmən ibn Əbu Bəkr idi.Buna

görə də İmam Cəfər deyib: “Əbu Bəkr məni iki dəfə dünyaya gətirib. (Ərdəbili “Kəşful Ğummə” c.2,səh 161)

“Beləki,İmamın anası Umm Fərva Qasim ibn Muhəmməd ibn Əbu Bəkrin qızı idi.Umm Fərvanın anası isə Əsma bint Abdurrəhman ibn Əbu Bəkr idi. “ (“Firəquş şia” Növbəxti səh 78)

Bununla Imam Cəfər əs-Sadiq demək istəmişdir ki, onun ana babası və ana nənəsi Əbu Bəkr əs-Siddiqin nəvələridir. Biz imam Cəfər əs-Sadiqin şəcərəsinə nəzər salsaq bu deyilənlərin həqiqət olduğunu görərərik:



Yuxarıda göstərilən şəcərədən imam Cəfər əs-Sadiqin şərəfli nəsildən olduğu açıq-aydın görünür. Elə bu səbəbdən də, iki möhtərəm xəlifənin nəslindən olan bu imama "Əmuduş-Şərəf"
(Silsilətul Əlamul Hidayə" 8/41.) yəni şərəf dirəyi deyirdilər.

Əbu Bəkr (r.a)-ın nəvəsi İmam Muhəmməd Baqirin zövcəsi olub.Kuleyni Kafi kitabında “Cəfərin dünyaya gəlməsi” fəslində yazır: “Əbu Abdulla hicri 83 ildə anadan olub və 148-ci ildə vəfat edib.Onun 65 yaşı var idi.O,Baqidə atasının və babasının basdırıldığı qəbirsanlıqda dəfn olunub.Onun anası Umm Fərva bint əl Qasim ibn Muhəmməd ibn Əbu Bəkr,anasının anası isə Əsma bint Əbdurrahmən ibn Əbu Bəkr idi.” (“Kafi” c.1,səh 472)

Şeyx Mufid yazır: “Qasim ibn Muhəmməd ibn Əbu Bəkr və İmam Zeynəlabiddin ana tərəfdən xala oğludurlar.Belə ki,Əli (r.a)-ın Xilafəti zamanı Fars padşahlarından Yezdəgirdin iki qızından birini Əli (r.a) Hüseyn (r.a)-a,digərini isə Muhəmməd ibn Əbu Bəkr (r.a)-a ərə verdi.Beləliklə Hüseyn (r.a)-in zövcəsindən İmam Zeynəlabiddin,Muhəmməd ibn Əbu Bəkr (r.a)-ın zövcəsindən isə Qasim dünyaya gəldi.” (“Mufid “İrşad” səh 253; Şeyx Abbas Qummi “Muntəxil aməl” c.2,səh 3)

Əllamə Məclisi isə bu məsələni başqa cür təsvir edir.Ona görə Yəzdəgirdin qızı Şəhrabənu Mufidin dediyi kimi Əli (r.a)-ın vaxtında,Şeyx Səduqun Osmanın vaxtında dediyi kimi deyil,Ömərin vaxtında əsir götürülüb.Bundan sonra Məclisi yazır: “Qasim ibn Muhəmməd ibn Əbu Bəkr və Zeynəlabiddin ibn Hüseyn ibn Əli ana tərəfdən xala uşağıdırlar. (“Cilalul uyun” səh 673-674;farsca)

İmamların övladlarının adları

Şeyx Mufid "İrşad" kitabında Əli (r.a)-ın övladları fəslində onlar haqqında yazır: "...12-Əbu Bəkr künyəli Muhəmməd əl Əsgər,13- Ubeydullah.Bunlar hər ikisi qardaşları İmam Hüseyn (r.a) ilə Tuf döyüşündə şəhid oldular...." ("Mufid "İrşad" səh 186)

Mufid "İrşad" kitabında"Möminlərin Əmirinin övladları" fəslində yazır: "Möminlərin Əmirinin 27 övladı olub.Birincisi Həsən,ikincisi Hüseyn...altıncı Ömər,yeddinci Rüqəyyə.Ömər və Rüqəyyə əkiz idilər.Onların anası Umm Həbib bint Rəbiyyə idi. (Mufid "İrşad" səh 176)

əl Yəqubi yazır: "Əli (r.a)-ın 14 oğlu var idi: "Həsən,Hüseyn,...Ubeydullah,Əbu Bəkr.Bu sonuncu oğullarının anası isə Yalə bint Məsud əl Xənzəmiyyə bəni Təym idi."(Yəqubi c.2,səh 213)

Şeyx Mufid "Həsən ibn Əlinin övladları" fəslində yazır: "Həsən ibn Əlinin övladlarının sayı 15 idi:
1)Zeyd....5)Ömər,6)Qasim,7)Abdulla.Bunların anası Umm Vələd idi." (Mufid "İrşad" səh 194;"Tarix Yəqubi" c.2,səh 228; "Umdətul Talib" səh 81;"Fəslul muhim"səh 166)

əl İsfahani İmam Hüseyn və ailəsinin şəhid olması hadisəsindən bəhs edərkən yazır: "Onlardan biri də Əbu Bəkr ibn Əli ibn Əbu Talib idi.Onun anası Yalə bint Məsud....Əbu Cəfər deyir ki,onu Həmədandan olan bir nəfər öldürdü.əl Mədaini isə deyir ki,Əbu Bəkrin cəsədini yerdə gördüm və onu kimin öldürdüyünü bilmədim." (İsfəhani "Məkatilun talibin" səh 142; bənzər nəql "Kəşful gimmə" c.2,səh 64; "Cilalul uyun" səh 582)

Yəqubi yazır: "İmam Həsən (r.a)-ın 8 oğlu var idi.Bunlar: "...Əbu Bəkr və Əbdurrahmən,Təlha və Ubeydullah idi" (Yəqubi c.2,səh 228;Qummi "Muntəxil aməl" c.1,səh 240)

İsfahani yazır: "Əbu Bəkr ibn Həsən ibn Əli ibn Əbu Talib Kərbəlada Hüseyn (r.a) ilə bir yerdə şəhid olmuşdu.Onu Ukbə əl Qanvi öldürmüşdü."(İsfəhani "Məkatilun talibin" səh 87)

Məclisi yazır: "Ömər ibn Əli Hüseyn (r.a) ilə Kərbəlada şəhid olanlardan idi.Onun anası Umm Bənin bint əl Hizam əl Kiləbiyyə idi." ("Cilalul əyun" səh 570)

Məsudi "Xəbərdarlıq və rəhbərlik" kitabında yazır: "Kərbəlada şəhid olan Hüseyn (r.a)-ın övladları bunlar idi: "Əli Əkbər,Abdulla,balaca oğlan və Əbu Bəkr.Bütün bunlar Hüseyn ibn Əlinin oğlanları idi." (səh 263)

Məclisi Kərbəlada şəhid olan Hüseynin ailəsini qeyd edərkən yazır: “Hüseyn (r.a)-ın oğlanlarından şəhid olanlar məlum olduğu kimi Əli Əkbər və Abdulla idi ki,hansıki atasının qucağında canını tapşırdı.Bəziləri deyir ki,onun şəhid olan övladları arasında Ömər və Zeyd də var idi.” (“Cilalul əyun” səh 582)

İsfəhani yazır: “Ömər Zeyd ibn Əlinin ata,anası bir olan doğma qardaşı idi.Zeyd ibn Əlinin bioqrafiyası altında müəllif yazır: “Zeyd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib...Onun anası Umm Vələd idi.O,Muxtar ibn Əbu Ubeydə tərəfindən Əli ibn Hüseynə verilmişdi.Bu qadından İmam Zeynəlabiddinin Zeyd,Ömər,Əli və Xədicə adlı övladları olmuşdu...” (“Məkatilun talibin” səh 127)

“Fəslul muhim” kitabı və digər kitablarda “Əli ibn Əbu Talibin övladları”fəslində yazılır: “Ömər Bəni Təqlub qəbiləsindən olan qadından dünyaya gəlmişdi.Onu adı Səhba bint Rəbiyyə idi.O,Xalid ibn Vəlid tərəfindən Əyun Təmr döyüşündə əsir götürülənlərdən idi.Bu Ömər 85 il yaşadı və ona Əli (r.a)-ın mülkünün yarısı miras qaldı.Bu ona görə belə oldu ki,onun qardaşları Abdulla,Cəfər,Osman Hüseyn (r.a)-la birgə Kərbəlada şəhid olmuşdular.Ona görə də ona qardaşlarına çatan miras çatdı.” (“Fəslul muhim” səh 143; “Umdətul Talib” səh 361; “Kəşful-ğummə” c.1,səh 575)

Ərdəbili “Kəşful Ğummə”-də yazır: “Yenə deyirlər ki,Zeynəlabiddin ibn Hüseyni Əbu Bəkr adlandırırdılar.” (Ərdəbili “Kəşful Ğummə” c.2,səh 74,Növbəxti “Firəq əş şia” səh 177 (türk dilində)

İsfahani İsa ibn Mehrandan o da Əbu Salatə əl Xəravidən rəvayyət edir ki, “Bir gün Xəlifə Məmun məndən bir məsələ baradə soruşdu və mən dedim: “Bu məsələdə bizim Əbu Bəkr biliklidir.İsa ibn Mehran deyir ki,o Əbu Salətədən soruşdu: “Bizim Əbu Bəkr kimdir?”
O dedi: “Əli ibn Musa ər Rza bu künyə sahibi idi.Onun anasını isə Əbu Bəkrin anası çağırardılar.” (İsfəhani “Məkatilu talibin” səh 561-562)

Şeyx Mufid Musa ibn Cəfərin övladlarını və bu baradə ki,xəbərləri nəql edərkən yazır: “Museyyi Kazımın 37 uşağı var idi: “Əli ibn Musa ər Rza....Fatimə,Aişə,Ümm Sələmə” (“Mufid “İrşad” səh 302-303; Kəşful Ğummə” c.2,səh 237)

“İmam Zeynəlabiddin də qızlarından birinin adını Aişə qoymuşdu.” (Kəşful Ğummə” c.2,səh 90)

Həmçinin Musa Kazım ibn Cəfər (7-ci İmam) öz oğullarından birinin adını Ömər qoymuşdu.Bu baradə Ərdəbili İmam Museyyi Kazim övladlarından bəhs edərkən yazır. (Ərdəbili “Kəşful Ğummə”,səh 126)

İmam Zeynəlabiddin də öz oğullarından birinin adını Ömər qoymuşdu.Mufid "Əlinin övladları" fəslində yazır: "Əli ibn Hüseynin (Zeynəlabiddin) 15 oğlu var idi: 1) Muhəmməd Baqir (Əbu Cəfər),...6) Ömər (anası Umm Vələd idi) "(Mufid "İrşad" səh 261; (Ərdəbili "Kəşful Ğummə",c.2,səh 105; "Umdətul Talib" səh 194; "Fəslul muhim" səh 209)

10-cu İmam Əli ibn Muhəmməd əl Hadi qızlarından birinin adını Aişə qoymuşdu.Mufid yazır: "Əbul Həsən 254-ci il rəcab ayında vəfat edəndə öz evində Samarrada dəfn edildi və özündən sonra övladları Əbu Muhəmməd əl Həsən... və qızı Aişəni qoydu." ("Mufid "İrşad" səh 304)

Kərbəla düzündə kufəlilər tərəfindən şəhadətə yetirilən Hüseyn (r.a) ilə bərabər zalım düşmənə qarşı vuruşanlar qardaşları arasında Əli (r.a)-ın övladları:

1. Əbu Bəkr ibn Əli ibn Əbu Talib
2. Ömər ibn Əli ibn Əbu Talib
3. Osman ibn Əli ibn Əbu Talib
4. Əbu Bəkr ibn Həsən ibn Əli ibn Əbu Talib
5. Ömər ibn Həsən ibn Əli ibn Əbu Talib

Bu fakt bütün şiə qaynaqları tərəfindən təsdiqlənib. Müfidin "əl-İrşad", Abbas əl-Qumminin "Muntehal Amal" və başqa şiə qaynaqları buna sübutdur.

Fatimə ilə evlənmədə Əbu Bəkr və Ömərin xidməti

Şeyxut taifa Tusi Dəhhaq ibn Muzəhimədən rəvayyət edir: "Mən Əli ibn Əbu Talibin belə dediyini eşitmişəm: "Mənim yanıma Əbu Bəkr və Ömər gəldilər və dedilər: "Peyğəmbər (s.a.s)-in yanına gedib,onun yanında Fatiməni xatırlatsaydın..."
Əli (r.a) dedi: "Sonra mən Rasulullah (s.a.s)-in yanına getdim.O,məni görcək gülümsədi və dedi: "Ya Əli.Səni bura nə gətirdi və nəyə ehtiyyacın var?"
Mən bizim qohumluq əlaqələrimizi,İslamda birincilərdən olmağımdan,cihaddakı iştirakımı xatırlatdım.Peyğəmbər (s.a.s) buyurdu: "Ya Əli.Sən haqqlısan və hətta dediklərindən də əfzəlsən.Onda mən dedim: "Ey Allahın Elçisi.Məni Fatimə ilə evləndir." (Tusi "Əməli" c.1,səh 38)

Əllamə Məclisi kitabında yazır: "Günlərin bir günü Əbu Bəkr,Ömər və Sad ibn Muaz məsciddə oturaraq Əlinin Fatimə ilə evlənməsi məsələsini müzakirə edirdilər.
Əbu Bəkr dedi: "Qureyşin ağsaqqalları Peyğəmbər (s.a.s)-ə Fatimənin evliliyi baradə müraciət etmişlər.Amma,Peyğəmbər (s.a.s) dedi ki,hər şey Allahın ixtiyarındadır.Biz belə güman edirik ki,O Əli ibn Əbu Talibin zövcəsi olacaqdır.Əli isə bununla bağlı Peyğəmbər (s.a.s)-ə kasıb və əmlakının olmaması üzündən müraciət etməmişdir.Əbu Bəkr Ömər və Sada dedi: "Gəlin Əli ibn Əbu Talibin yanına gedək,ona təsəlli verək və

onun Fatiməni Peyğəmbər (s.a.s)-dən istəməsinə təşviq edək.Əgər problem kasıblıqdırsa,biz ona kömək edərik.”
Sad dedi: “Bu yaxşı fikirdir.”
Daha sonra onlar Əli ibn Əbu Talibin evinə getdilər.Onlar gəldikdə Əli soruşdu: “Siz bu vaxtı bura nə gətirdi?”
Əbu Bəkr dedi: “Ya Əbu Həsən.Elə bir yaxşı xüsusiyyət yoxdur ki,sən bizi onda qabaqlamayasan.....Sənə Fatiməni Peyğəmbər (s.a.s)-dən istəməyə nə mane olur?
Əli bu sözləri Əbu Bəkrdən eşidəndə gözlərindən yaş süzüldü və dedi: “Mənim yaralarım açıldı.Siz mənim çoxdan bəri gizlətdiyim ümidlərimi oyatdız,yuxularımı isə çin etdiz.Onunla kim evlənmək istəməz?Mənə sadəcə kasıb olmağım mane olur və mən Peyğəmbər (s.a.s)-ə belə kasıb halda üz tutmaqdan utanıram.” (“Cilalul əyun” c.1,səh 169 (185))

Əli (r.a) deyir: “Mən Peyğəmbər (s.a.s)-dən Fatiməni istədiyim zaman O mənə dedi: “Öz qalxanını sat və əvəzində pul gətir ki,bunun müqabilində mən səni və Fatiməni bəzi şeylərlə təmin edim.
Əli (r.a) deyir: “Mən qalxanımı aldım və bazara getdim.Orada mən qalxanımı Osman ibn Əffəna satdım.Mən pulu,Osman isə qalxanı alanda O mənə dedi: “Ey Əbu Həsən! Sənin pula ehtiyyacınmı var? Mən dedim: “Elədir.”
Osman dedi: “Qalxanını götür.Mən onu sənə bağışladım.”
Mən qalxan və pulu alıb,Peyğəmbər (s.a.s)-in yanına gəldim.Onu Peyğəmbər (s.a.s)-in qabağına qoyub,Osmanın nə etdiyini dedim.Bundan sonra Peyğəmbər (s.a.s) onu üçün dua etdi.” (Xəvarəzmi “Mənakib” səh 252-253; Ərdəbili “Kəşful Ğummə”,c.1səh 359,Məclisi “Biharul Ənvar” c.43,səh 130)

Şeyx Tusi yazır: “Əli (r.a) öz qalxanını satdı və dirhəmləri Peyğəmbər (s.a.s)-ə gətirdi.Sonra Peyğəmbər (s.a.s) dirhəmləri alıb,Əbu Bəkrə verdi və dedi: “Fatimə üçün paltar və ev əşyalarından zəruri olanları al və Əmmar ibn Yasir vəya digər dostlarına ötür ki,onlar bunları gətirsinlər.”
Onlar bazara getdilər və zəruri olan yaxşı malları Əbu Bəkrə göstərmədən almadılar.Əgər mal Əbu Bəkrin xoşuna gələrdisə onu alardılar.Alış veriş qurtardıqdan sonra Əbu Bəkr malların bir hissəsini alıb evinə,digər Səhabələr isə digər hissəsini apardılar.” (Tusi “Əməli” c.1,səh 39;“Mənakib ibn Şəhraşub Məzandarani” c.2,səh 20; (“Cilalul əyun”(fars dilində) c.1,səh 176)

Xəvarizmi əş Şia,Məclisi və Ərdəbili yazdıqlarına görə: “Əbu Bəkr,Ömər,Sad Əlini Peyğəmbər (s.a.s)-in yanına göndərdikdən sonra onu məsciddə Peyğəmbər (s.a.s)-dən ürəyə xoş gələn xəbər və bu təklifin qəbul olunması müjdəsini gözləməyə başladılar.Hər şey onların gözlədiyi kimi oldu.Əli (r.a) özü deyir: “Mən Peyğəmbər (s.a.s)-in yanından sevincimin həddi hüdudu olmadığı bir halda çıxdım.Məni Əbu Bəkr və Ömər qarşıladılar və dedilər: “Nə oldu?”
Mən dedim: “Peyğəmbər (s.a.s) öz qızı Fatiməni mənə ərə verməyə razı oldu....”
Onlar çox sevindilər və mənimlə birgə məscidə qayıtdılar.....” (Xəvarəzmi “Mənakib” səh 251-252; “Kəşful-ğummə” c.1,səh 358; Məclisi “Biharul Ənvar” c.10,səh 38-39)

Ərdəbili Ənəsdən rəvayyət olunan hədisdə yazır: “Mən Peyğəmbər (s.a.s)-in yanında idim və birdən ona vəhy gəlməyə başladı.Özünə gələndən sonra mənə dedi: “Ey Ənəs.Bilirsənmi,Cəbrayıl mənə hansı xəbərlə gəldi?Mən dedim: “Allah və Rəsulu daha yaxşı bilir.”
Peyğəmbər (s.a.s) dedi: “Allah Təala mənə Fatiməni Əliyə ərə verməmi əmr etdi.İndi isə get və Əbu Bəkr,Ömər,Osman və Ənsarlardan olanları çağır.”
Ənəs deyir: “Mən getdim və onları çağırdım.Onlar gəlib,oturanda Peyğəmbər (s.a.s) Allahı həmd səna etdi və dedi: “Mən sizi şahid tuturam ki,Fatiməni Əliyə 400 misqal gümüş müqabilində ərə verirəm.”(“Kəşful-ğummə”c.1,səh 358)

Həsən Peyğəmbər (s.a.s)-in mağara yoldaşı,atasının dostu,Əliyə nigahda yardım edən Əbu Bəkr onunla oynayırdı,oxşayırdı,çiyninə qoyardı və deyərdi: “Peyğəmbər (s.a.s)-ə oxşayır,atasına oxşamır.” (“Tarix Yəqubi” c.2,səh 117)

Fatimənin dəfni

“Əbu Bəkrin yoldaşı Əsma bint Umeys Fatimə can ayağında olanda onunla bərabər idi,onu qüsl etdirib,dəfn edənlərdən idi.Fatiməyə Əli birdə Əsma qulluq edirdilər.” (“Tarix Yəqubi” c.2,səh 117)

“Fatimə ona kəfənini bağlamağı,dəfn etməyi və qəbrə qədər müşayət etməti vəsiyyət etmişdi.Əsma bunları yerinə yetirdi.” (“Cilalul əyun”səh 235,242)

“Əsma Fatimə ilə birgə onun son nəfəsinə qədər oldu və o Əlini bundan xəbərdar etdi.” (“Cilalul əyun”səh 237)

“Əsma Fatimənin yuyulmasında iştirak etdi.” (“Kəşful-ğummə” c.1,səh 504)

“Fatimə xəstələnəndə Əli beş vaxt namazı məsciddə qılırdı.Namazı bitirdikdən sonra Əbu Bəkr və Ömər onu soruşurdular: “Peyğəmbər (s.a.s)-in qızı özünü necə hiss edir?” (“Kitab Suleyman ibn Qeys” səh 353; “Biharul ənvar” c.43,səh 198)

“Fatimə vəfat edən günü Mədinənin kişi və qadınları ağladılar.İnsanlar Peyğəmbər (s.a.s)-in vəfat etdiyi gün kimi kədərlənmişdilər.Əbu Bəkr və Osman Əliyə təsəlli verir,ona başsağlığı verir və deyirdilər: “Ey Əbu Həsən.Peyğəmbər (s.a.s)-in qızının cənazə namazını bizsiz qılma.”
(“Kitab Suleyman ibn Qeys” səh 255)

İmam Baqir atasından rəvayyət edir ki,Fatimə (r.a) vəfat edəndə Əbu Bəkr və Ömər gəlib,cənazə namazı qılmaq istədilər.Əbu Bəkr Əliyə namazda imamlıq etməyi xahiş elədi.Əli dedi: “Mən sənin qarşına keçə bilmərəm.Sən Allah Elçisinin xəlifəsisən və namaz 4 təkbirdən ibarət oldu.” (“Kənzul əməl”c.6 “fəzilə mun Qasima əlfəal” fəsli)

Ömər Faruq

Əli (r.a) deyir: “və rəhbər gəldi,dini ucaltdı,haqq yoluna qoyuldu və dini möhkəmləndirdi.” (“Nəhcul Bəlağa” səh 557,Muhəmməd Abduhun nüsxəsində isə c.4,səh 107)

Nəhcul Bəlağənin məşhur şərhçisi Meysəm əl Bəhrani və əd Dənbali dedilər: “Rəhbər-Ömər ibn Xəttabdır.” (“Şərh Nəhcul Bəlağa” Meysəm Bəhrani c.5,səh 463; “Diraru Nəcəfiyyə” səh 394)

Mötəzilə Şiə olan İbn Əbil-Hədid Əli (r.a)-ın çıxışlarından bəhs edərkən yazır: “Rəhbər sözündən qəsd olunan Ömər ibn Xəttabdır.Bu sözlər isə onun Xəlifəliyi vaxtı etdiyi çıxışdandır.Bu sözlərdə onun Peyğəmbər (s.a.s)-ə yaxınlığı,etibar və sirr sahibi olması xatırlanır.Əli (r.a) deyir:
“Müsəlmanlar Peyğəmbər (s.a.s)-dən sonra elə insanı seçdilər ki,O insanların aralarını yaxınlaşdırdı,hər kəsə bacardığı qədər özündə ciddilik və zəiflik olan halda haqqını verdi.Ondan sonra dini ucaldan,haqq yoluna qoyulan və dini möhkəmləndirən rəhbər gəldi.” (İbn Hədid “Şərh Nəhcul Bəlağa”;c.4,səh 519)

əd Deynəvari əş Şiə kitabında yazır: “Əli (r.a) Kufəyə gəldikdə ondan soruşdular: “Ey Möminlərin Əmiri! Sən sarayda qalacaqsanmı?”
Əli (r.a) dedi: “Orada qalmağa heç bir ehtiyyac yoxdur.Beləki,Ömər saraylara nifrət edərdi.Mən məscidin həyətində qalacam.Sonra O böyük məscidə keçib,iki rükət namaz qıldı və həyətdə oturdu.” (Əhməd ibn Dəun Dinəvari “Əxbaru təvil” səh 152)

Seyyid Murtəza yazır: “İdarəçilik Əli ibn Əbu Talibin əlinə keçən zaman ona Fədəki qaytarmağı məsləhət gördülər.Əli (r.a) isə dedi: “Mən Əbu Bəkr və Ömərin vermədiyini verməkdə Allahdan utanıram.” (“Şəfaə fil İmamə” səh 213)

İmam Həsən deyir: “Mən Əli ibn Əbu Talibin etdiklərində Ömərin etdiklərinə əks olan heç nə görmürəm.Hətta,Əli Kufəyə gələndə Ömərin etdiklərindən heç nəyi dəyişmədi.” (Muhib Təbəri “Riyadu nadira” c.2,səh 85)

Nəcran əhalisi Əliyə Ömərin onlarla bu cür davrandığını dedilər.Əli isə onlara dedi: “Ömər işlərində sadiq idi.Mən onun etdiklərindən heç nəyi dəyişmirəm.” (Beyhəqi c.1,səh 130; İbn Əsir c.2,səh 201;Buxari “Tarixul əbir” c.4,səh 145)

Əli (r.a) Kufəyə gələndə dedi: “Mən heç vaxt Ömərin bağladığı düyünü açmaram.” (“Kitabul Hərac” İbn Adəm səh 23;”Fəthul buldan” Bəlazuri səh 74)

İbn Abbas (r.a) rəvayyət edir: “və biz Əli (r.a)-ın qızı Ümm Gülsümün səsini eşitdik ki,ağlayırdı: “Ey Ömər!” və onunla ağlayan qadınlar var idi.Ev ağlayanlarla dolu idi. Ömər dedi: “Vay olsun Ömərə,əgər Allah onu bağışlama.”Mən ona dedim: “Mən sənə Cəhənnəmi ayədə deyilən qədər görməyi arzu edirəm: “Həqiqətən siz hamınız ordan keçəcəksiz.” Əgər sən belə Möminlərin Əmiri və müsəlmanların başçısı kimisənsə,Allahın Kitabı ilə hökm edib,hər şeyi haqqı ilə bölürsənsə...”
Mənim sözüm onu sevindirdi,O ayağa qalxdı,sonra oturdu və dedi: “Buna şəhadət edirsənmi ey İbn Abbas?”
Mən bu an təsdiqləməkdə tərəddüd etdim,amma Əli (r.a) əlini çiynimə vurub dedi: “Şəhadət ver.”
Digər mətndə isə “Niyə narahat olursan ey Möminlərin Əmiri? Allaha and olsun ki,sənin İslama gəlişin müsəlmanlar üçün fəxr,idarə etmən isə bizim üçün şərəf oldu.Sən yerdə ədaləti bərpa etdin.” Ömər (r.a) dedi: “Buna şahitlik edirsənmi ey İbn Abbas?”
İbn Abbas şahitlik etmədə bir qədər susdu.Əli (r.a) dedi: “Söylə “bəli”və mən səni dəstəkləyirəm.”
İbn Abbas dedi: “Bəli”
(“İbn Əbil Hədidin məsələləri” c.3,səh 146;İbn Cəuzi “Siratul Ömər” səh 193)

Bundan başqa Əli (r.a) Allahın hüzuruna Ömər (r.a)-ın etdiyi əməllər ilə getməyi arzu edirdi.Bunu Seyyid Murtəza,Əbu Cəfər ət Tusi,İbn Babveyh (Şeyx Səduq) və İbn Əbil Hədid qeyd ediblər.
“Biz Öməri yuyanda və kəfənini bükəndə Əli (r.a) içəri gəldi və dedi: “Allahın salamı və mərhəməti ona olsun.Ömərdən başqa bu dünyada mənim onun ölümü kimi ölmək istədiyim adam yoxdur.
(“Kitabuş şafi” Alamul Huda səh 171; Tusi “Təlxis əş Şafi”c.2,səh 428; Səduq “Məanil əxbar” səh 117)

Bu rəvayyət İmam Hakim,İmam Əhmədin “Müsnəd”,Buxari və Müslimin kitablarında da keçməkdədir.

İbn Əbil Hədid yazır: “Möminlərin Əmiri Ömər xəncərlə ölümcül yaralanmışdı.İnsanlar onu tərk etdilər.O,isə sübh namazını bitirməmiş halda yerdə uzanıb qanına boyanmışdı.Ona dedilər: “Ey Möminlərin Əmiri.Bəs namaz necə olsun?Ömər başını qaldırdı və dedi: “Allah bundan saxlasın.Namazı tərk edənin dində payı yoxdur.” Sonra O ayağı qalxmaq istədi.Amma,onun yarası daha çox qanamağa başladı.O dedi: “Mənə çalma gətirin.” Çalmanı açıb yarasını bağladı.Sonra O namaz qıldı və Allaha həmd

sənalar etdi.Daha sonra oğlu Abdullaha döndü. “Məni üzü üstə yerə uzat.”Abdullah dedi: “Bunu deyəndə mən fikir vermədim və düşündüm ki,O sayıqlayır.Lakin,O,yenə eyni sözləri dedi.Mən yenə heç nə etmədim.O,üçüncü dəfə dedi: “Sən eşitmirsən? Məni üzü üstə yerə uzat”
Mən başa düşdüm ki,O özündədir,bunu özü edə bilərdi.Amma,hiss edirdi ki,yavaş-yavaş huşunu itirir.Ona görə mən onu uzatdım və toza batmış saqqalına baxdım.Ömər ağladı və mən gördüm ki,onun gözü yerə zillənib.Əyiləndə onun bunları dediyini eşitdim: “Əgər Allah onun bağışlamasa vay Ömərə və onun anasına.”Digər rəvayyətdə isə Əli (r.a)-ın onun başanın üstündə dayanıb belə dediyi nəql olunur: “Ömərdən başqa bu dünyada mənim onun ölümü kimi ölmək istədiyim adam yoxdur.” (İbn Hədid “Şərh Nəhcul Bəlağa”;c.3,səh 147)

“Əli (r.a) şahidlik edib ki,bu ümmətin Peyğəmbər (s.a.s)-dən sonra ən xeyrlisi Əbu Bəkr və Ömərdir.” (Murtəza“Kitabuş şafi”c.2,səh 428)

Əbu Bəkr və Ömər baradə Murtəzanın Şafi kitabında yazılır: “Onlar doğru yola yönəldən əsas insanlar olublar.İslamın ağsaqqalları və Peyğəmbər (s.a.s)-dən sonra ibrət alınmağa ən layiq adamlar olublar.Onlara uyanlar xilas olacaqlar.” (Tusi “Təlxis əş Şafi” c.2,səh 428)

Həmçinin Peyğəmbər (s.a.s)-dən buyrulan hədisdə deyilir: “Əbu Bəkr mənə qulaq kimi zəruri,Ömər isə gözüm kimidir.” (“Uyun əxbarul Rida” c.1,səh 313; Səduq “Məanil əxbar” səh 110)

Bu hədisi Əli (r.a),ondan da Həsən (r.a) rəvayyət etmişdir.

İbn Abbas (r.a) deyir: “Allah Əbu Həfsə rəhmət etsin.Allaha and olsun ki,O İslam üçün çalışdı,yetimləri himayə etdi və çox şəfqət göstərdi.O,imanın timsalı idi,zəifləri qoruyar və möminlərin dirəyi idi.O,Allah qarşısında haqqı verdi,səbr göstərdi,öz əməlləri və işlərinə görə özünə hesabat verdi.Beləliklə,dini aydınlatdı,torpaqları fəth etdi və həqiqi qulların təhlükəsizliyini təmin etdi.” (Məsudi “Muruc əz Zəhab”c.3,səh 51;“Nəshu Təvarix” c.2, səh 144)

Ümm Gülsümün Ömərə verilməsi

Əhməd ibn Yəqub hicri 17-ci illərin hadisələrindən Möminlərin Əmiri Ömərin hakimiyyətindən danışarkən yazır: “Bu ildə Ömər Əli ibn Əbu Talibin qızı Ümm Gülsümü istədi.Onun anası Fatimə (r.a) idi.Əli (r.a) dedi: “O,axı hələ balacadır.” Ömər dedi: “Mən ona hələ toxunmayacam.Mən sadəcə Peyğəmbər (s.a.s)-in belə buyurduğunu eşitmişəm: “Mənim nəslim və qohumluq əlaqələrimdən başqa bütün nəsillər və bağlar Qiyamət gününə qədər kəsiləcəkdir.Ona görə mən Peyğəmbər (s.a.s)-lə qohumluq əlaqəsi qurmaq istədim.
Beləliklə, Ömər onunla evləndi və mehr olaraq 10 000 dinar verdi.” (“Tarix Yəqubi” c.2,səh 149-150)

Bunu dörd əsas Şiə kitabları da təsdiq edib. Küleyni “Ümm Gülsümün ərə verilməsi” adlı bir fəsil ayırmışdır və burada bunu təsdiqləyən bir neçə hədis rəvayyət etmişdir.

Küleyni Kafi kitabında yazır ki,Əli (r.a) öz qızı Ümm Gülsümü Faruqa ərə verdi.” (“Kafi fi əl-füru”, “Ər evinə köçəndən sonra əri ölmüş qadın əri öləndən sonra harada qalmalıdır” fəsli, səh.311, 2-ci cild, Hindistan çapı.)

Küleyni Müaviyyə ibn Əmmardan Əbu Abdullahdan yazır: “Müaviyə deyir ki, mən ondan əri ölmüş arvadın öz evində, yoxsa harada istəsə qalmalı olduğunu soruşdum, o dedi: “Əlbəttə, harada istəsə. Əli (r.a) Ömər öləndən sonra Ümm Gülsümün təlağını alıb onu öz evinə gətirdi”. (“Kafi” c.6,səh 115-116)

Bunu həzm edə bilməsələrdə belə etiraf etməli olublar: Əbu Abdullahdan: “Həqiqətən bu bizim fərcimiz (qadın cinsi orqanı) namusumuz idi ki,əlimizdən zorla aldılar.” (“Furu əl Kafi” c.2,səh 141)
Burada söhbət Əli (r.a)-ın qızı Ümm Gülsümün Ömər (r.a)-ə ərə verilməsindən gedir.

Şeyx Tusi də İmam Cəfərin öz atasından belə rəvayyət etdiyini göstərir ki, Əlinin qızı Ümm Gülsüm və Ümm Gülsümün oğlu Zeyd ibn Ömər ibn Xəttab bir saatda ölmüşlər. Bilinmir ki, onların ikisindən hansı o birindən əvvəl həlak olmuşdur. Onların birinə digərindən miras qalmamışdır. Hamı onlara dua oxumuşdur”. (Tusi. “Təhzib əl-əhkam”, səh.380, 2-ci cild, “Miras kitabı”, Tehran çapı)

Bu nigah baradə Şiə mühəddisi Seyyid Murtəza özünün “Şəfa” (səh 116),İbn Şəhr Aşub “Əbu Talib nəslinin fəziləti” kitabında (c.3,səh 162),Ərdəbili “Kəşful Ğummə”əsrində (səh 10),İbn Əbil Hədid şərhində (c.3,səh 124),Məqdis Ərdəbili “Şia bağı” kitabında (səh 227),Nurullah Şuştəri “Məcalis muminin” (səh 76) kitablarında qeyd ediblər.

Şuştəri əl Miqdad Əsvəddən nəql edir ki: “Peyğəmbər (s.a.s) öz qızını Osmana,Mövla Əli (r.a) isə öz qızını Ömərə ərə vermişdi.” (“Məcalis muminin”səh 85)

Bu məsələyə O digər kitabı “Musibətu Nəvasib”-da (səh 170 Tehran) toxunmuşdur.

Həmçinin Nemətullah Cəzairi “Ənvər”,Məclisi “Dəniz işığı”,Muhəmməd Cavad əş Şari “Möminlərin Əmiri” kitabında (səh 217),Abbas Qummi “Umdətul Talib”(c.1,səh 186) və başqaları öz kitablarında bu hadisəni qeyd ediblər.

Buna əsaslanaraq Şiə alimləri hesab ediblər ki,Haşimi qadın Haşimi olmayan kişiyə ərə gedə bilər.Qummi “İslam Şəriəti” kitabında yazır: “Ərəb qadının ərəb olmayanla,Haşimi qadınında Haşimi olmayan kişi ilə nigahı caizdir”
Bu kitabın şərhçisi Zeynuddin əl Amili bu yerdə yazır: “Peyğəmbər (s.a.s) bir qızını Osmana,Zeynəbi Əbil Ass ibn Rabiyə (Haşimilərdən deyildi) ərə verdi.Həmçinin Əli (r.a) qızı Ümm Gülsümü Ömərə ərə verdi.Abdulla ibn Amr ibn Osman Fatimə bint Hüseynlə,Musa ibn Zubeyr isə onun bacısı Səkinə ilə evləndi.Bütün bu kişilər Bəni Haşimdən deyildilər.” (“Dərk etmənin yolları” kitabı “İslam Şəriəti” kitabının şərhində)

İbn Əbil Hədid yazır: “Ömər ibn Xəttab Rum imperatoruna namə göndərdi.Onun zövcəsi Ümm Gülsüm isə bir neçə dinara hədiyyələr alıb,onları iki qabda yerləşdirdi və onları İmperatorun yoldaşına hədiyyə olaraq göndərdi.Bir müddətdən sonra çapar qayıtdı və Ümm Gülsümə həmin qabları verdi,hansıki içərisində qiymətli daşlar vardı.Ömər onun yanına girəndə gördü ki,Ümm Gülsüm bu daşları yerə töküb və soruşdu: “Bunlar hamısı səndə hardandır?” O,cavab verdi və Ömər bunları ondan alıb dedi: “Bütün bunlar hamısı müsəlmanlara məxsusdur.”
Ümm Gülsüm dedi: “Necə? Bu axı mənim hədiyyəmə cavab olaraq göndərilib.”
“Onda qoy mənimlə sənin aranda atan mühakimə etsin.” deyə Ömər dilləndi.
Əli (r.a) gələndə dedi: “Sənə dinarlarının mislində olanı düşür.Yerdə qalanlar isə müsəlmanlara məxsusdur.” (“Şərh Nəhcul Bəlağa” İbn Əbil Hədid;c.4,səh 575)

Bu nigahı nəsəb alimləri olan Bəlazari “Fəzilətlilərin nəsəbi” kitabında (c.1,səh 428),İbn Həzm “Dahi ərəb nəsilləri” (səh 37-38),Bağdadi “Mürəkkəb” kitabında (səh 56),Dəynuri “Elm” kitablarında (səh 92) qeyd etmişlər.

Ömərin Əhli Beytə hörməti

Tarixçilər qeyd edirlər ki,Ömər (r.a) maliyyə işlərinə nəzarəti Bəni Haşimdən olanlara,onların Peyğəmbər (s.a.s)-ə qohum olduqlarından və onlara hörmət olaraq vermişdi.

Yəqubi yazır: “Hicri 20-ci ildə Ömər təsisat yaratdı və maaşlar verməyə başladı.Ömər dedi ki,beytul malda dövlət çoxalıb və ona məsləhət gördülər ki,təsisat yaratsın.O,Ukeyl ibn Əbu Talibi,Muhrəm ibn Houfəli,Cubeyr ibn Mutaməni çağırdı və dedi: “İnsanları yaşadıqları yerə görə siyahıya alın və Bəni Əbd Manafdan başlayın və

birinci başladığınız özünə 5000 verilən Əli ibn Əbu Talib olsun.Həsən ibn Əbu Talibə 3000,Hüseynə 3000 verilsin.Özünə O 4000 ayırdı.Birinci payladığı mülk Əbu Hureyranın Bəhreyndən gətirdiyi əmlak oldu.Bu əmlakın dəyəri 700 000 dirhəm idi.Belə olanda Faruq dedi: "İnsanları yerləşdikləri yerə görə siyahıya alın.Onlar da birinci Bəni Əbd Manafı,sonra Əbu Bəkrin qohumlarından başladılar.Sonra Ömər ibn Xəttab və onun qohumlarını qeydə aldılar.Ömər siyahıya baxanda dedi: "Allaha and olsu ki,mən Peyğəmbər (s.a.s)-lə qohumluq əlaqələrində olmağı çox istərdim.Siz Peyğəmbər (s.a.s)-dən başlayın.Sonra ona yaxın insanları qeydə alın.Məni də Allahın məni təyin etdiyi yerdə yazın." ("Tarix Yəqubi" c.2,səh 153)

İbn Əbil Hədid yazır: "....Peyğəmbər (s.a.s)-dən,qohumlarlndan və yaxınlarından başlayın.Siyahını tərtib edən Bəni Haşimdən başladı,sonra Bəni Əbdul Mutəllibə və Əbdul Şəms və Nofələ keçdi.Sonra Qureyşə daxil olan digər nəsəbləri yazdılar.Ömər libasları Mədinənin bütün qadınları arasında payladı və Həsən üçün bir libas qaldı.Ömərin yanında olanlar ona dedilər.Ey Möminlərin Əmiri! Bu libası Peyğəmbər (s.a.s)-in qızı (Əlinin qızı Ümm Gülsümə) ver.Ömər dedi: "Mən bunu Umm Səlimə verəcəm.Çünki,O Peyğəmbər (s.a.s)-ə beyət edənlərdən idi.Uhud günü O bizə döyüşdə həmdəm olmuşdu." ("Şərh Nəhcul Bəlağa" İbn Əbil Hədid;c.3,səh 113-114)

Məşhur Şiə İbn Ənaba deyir: "Onun adı Şəhribanu idi.Deyirlər ki,O Mədainin fəthi zamanı əsir düşmüşdü və İran padşahının qızı idi.Ömər ibn Xəttab onu Hüseyin ibn Əbu Talibə hədiyyə etdi."
("Əbu Talibin nəsəbinin tədqiqi" səh 192)

Kuleyni "Kafi" kitabında İmam Muhəmməd Baqirdən nəql edir: "Yezdəgirdin qızı Ömərin yanına gələndə Mədinənin bütün qadınları ona baxmağa gəldilər.O,məscidə gələndə Ömər ona baxdı və Şəhribanu üzünü bağladı və farsca dedi: "Uf beyruc bəda xərməz" Ömər dedi: "O,məni söyür nədir?" və özü onunla maraqlanmaq istədi. Möminlərin Əmiri Əli ona dedi: "Bu sənə yaraşmaz.Yaxşısı budur ki,ona müsəlmanlardan birini seçmədə sərbəst burax."
Ömər ona seçim etmək imkanı verdi və O gəldi və əlini Hüseyn ibn Əbu Talibin başına qoydu. Möminlərin Əmiri Əli ibn Əbu Talib ona dedi: "Sənin adın nədir?" O,dedi: "Cahanşah"
Yaxşısı budur ki,səni Şəhrubanuveyh adlandıraq deyə Əli söylədi.Sonra O Hüseynə dedi: "Ey Əbu Abdulla.O,sənə yer üzünün ən xeyrlilərindən birini doğacaq və O Əli ibn Hüseyni dünyaya gətirdi.Ona görə də Əli ibn Hüseyni "iki ən yaxşının oğlu" adlandırırdılar."
Ərəblərdən Allah Haşimi,əcəmlərdən isə Firuzu seçdi.Deyirlər ki,Əbul Əsvəd əd Duali bu baradə deyib: "Xosrovun və Haşimin nəslindən olan boğazına talisman taxılandan daha fəzilətlidir." ("Kafi" c.1,səh 467; Nəshu təvarih" c.10,səh 3,4)

İbn Əbil Hədid Səiddən nəql edir: "Ömər Hüseyn ibn Əliyə onun ehtiyyacı olduğu zaman yanına gəlməyi tapşırdı.Hüseyn yolda Abdulla ibn Öməri gördü və soruşdu: "Hardan gəlirsən?" Abdulla dedi: "Mən atamın yanına daxil olmaq istədim.Lakin,O mənə izn vermədi və Hüseyn yarı yoldan qayıtmalı oldu.Növbəti gün onu Ömər gördü və soruşdu: "Sənə yanıma gəlməyə nə mane oldu?"
Hüseyn dedi: "Mən gəlmişdim amma,oğlun Abdulla səndən izn ala bilmədi və mən də geri qayıtdım. Ömər dedi: "Sən mənim üçün oğlum kimisən.Sizdən dəyərli olan varmı?" (İbn Əbil Hədid "Şərh Nəhcul Bəlağa"c.3,səh 110)

Şeyx Tusi “Əməli” kitabında İmam Zeynəlabiddin atası Hüseyn (r.a)-dən,o da Əli ibn Əbu Talib (r.a)-dən rəvayyət edir ki,Ömər ibn Xəttab deyib: “Bəni Haşimin qayğısına qalmaq sünnə,onları ziyarət etmək isə müstəhəbdir.” (Tusi “Əməli” c.2,səh 345)

“Bir dəfə Ömərində iştirak etdiyi məclislərin birində bir nəfər Əli haqqında xoşagəlməz söz söylədi.Ömər o adama dedi: “Sən bu məzarda yatan adamı tanıyırsan?Ona görə Əlinin ünvanına pis söz söyləmə.Ancaq yaxşı söz söylə.Əgər sən onu incitsən,bu məzarda yatanı incitmiş olarsan.” (Şeyx Səduq “Əməli”səh 324; “Mənakib ibn Çəhraşub” c.2,səh 154)

Ömərə hörmət və ona beyət

Əli ibn Əbu Talib Muhəmməd ibn Əbu Bəkrin ölümündən sonra Misirdəki tərafdarlarına göndərdiyi məktubda yazır: “Əbu Bəkr iş başına gəldi və işləri gördü….və O ölüm ayağında olanda Ömərin ardınca adam göndərdi və onu özündən sonra Xəlifə etdi.Biz ona tabe olub,itaət etdik,onunla istişarələr etdik.”Sonra onu tərifl ədi – “Sonra yaxşı bioqrafiyalı və gözəl xüsusiyyətləri olan Ömər iş başına gəldi.” (“Hərrat” (Axın) Səkəfi c.1,səh 307)

Şeyx Tusi Əli ibn Əbu Talibdən rəvayyət edir: “Mən Ömərə sizin kimi beyət etmişdim və beyətimdə sadiq oldum.Hətta,O vəfat edəndə məni 6 namizəddən biri etdi.Mən O məni layiq gördüyünə görə namizəd oldum.” (Tusi “Əməli” c.2,səh 125)

Yəqubi yazır: “Ömər Peyğəmbər (s.a.s)-in səhabələri ilə Kufənin ətrafı baradə məsləhətləşirdi.Bəziləri dedilər: “Onu bizim aramızda böl.” Bu an Ömər Əliyə məsləhəti üçün üz tutdu.O,dedi: “Əgət sən onu indi bölsən,bizdən sonra gələnlərə bir şeylər qalmaz.Onların torpaqlarını özlərində saxla.Qoy onu becərsinlər.Bundan həm biz,həmdə bizdən sonra gələnlər faydalanacaqlar.”
Ömər dedi: “Allah səni saxlasın.Bu yaxşı fikirdir.” (“Tarix Yəqubi” c.2,səh 151-152)

Şeyx Mufid kitabında bütöv bir fəsili “Ömər ibn Xəttabın zamanında Əlinin fətvaları”adlandırmışdır.Bu fəsildə o çox saylı hadisələri qeyd edir və bəyan edir ki,Ömər hər dəfə Əlinin fikrini əsas alaraq qərarlar verərmiş.

“Ömərin yanına zina etmiş hamilə bir qadını gətirdilər və Ömər onu rəcm etməyi əmr etdi.Bu an Möminlərin Əmiri Əli ona dedi: “Hesab et ki,buna sənin tam haqqın

çatır.Lakin,sənin onun bətnindəkinə haqqın çatırmı? Allah buyurub: “Hər kəs başqasının deyil,öz günahının aqibətini görəcəkdir.”
Ömər dedi: “Əbul Həsənin açmadığı düyün yoxdur.”Sonra soruşdu: “Mən onunla nə edim?”Əli dedi: “Qoy övladını dünyaya gətirsin.Əgər övladına himayəçi tapsa onu cəzalandır.” Ömər bu fikrə çox sevindi və Əlinin dediyi kimi hökm verdi.” (Mufid “İrşad” səh 109)

Şeyx Mufid yazır: “Ömər ətrafında adamlar olan və söhbətləşən bir qadını hüzuruna çağırdı.Onun yanına Ömərin adamları gələndə O qorxdu və onlarla yola çıxdı.Yolda ikən onun anidən sancıları tutdu və uşağı yerə düşüb tələf oldu.Xəbər Ömərə çatanda O Səhabələrlə məsləhətləşməyə və məsələnin həllini soruşmağa başladı.Onlar hamılıqla dedilər: “Biz səni ədəbli və mədəni insan bilirik.Sən ona yaxşılıqdan başqa heç nə istəmirdin.Ona görə də səndə günah yoxdur.”
Möminlərin Əmiri Əli isə oturmuşdu və heç nə demirdi.Ömər ona dedi: “Bu baradə nə deyə bilərsən?” Əli dedi: “Onlar artıq sənin eşitdiyini dedilər”.Ömər dedi: “Mən artıq and içmişəm ki,sənin fikrini eşitməliyəm.” Əli dedi: “Əgər onların sənə haqqa yaxın məsləhət verdiklərini güman edirsənsə,onda bilki,onlar səni aldadırlar.Əgər onlar nəsə etdilərsə yalnız üzərindən kəffarəni götürmüş oldular.Çünki,uşağın ölümü sənin lə bağlıdır.”Ömər dedi: “Sənə minnətdaram.Sən mənə burdakılardan daha xeyrli məsləhət verdin.Bəni Adiy qəbiləsinə kəffarə verməyə tələs.Möminlərin Əmiri Əli də bunu etdi.” (Mufid “İrşad” səh 110)

Həmin mənbədə bu tipli daha bir neçə belə hadisələri Mufid qeyd etmişdir.

Ömər Əlini hicri15-ci ildə Şam əhli Fələstinlilərə qarşı ondan yardım istədikdə öz yerinə təyin etdi.Ömər Səhabələrlə məsləhətləşdi və Əli (r.a) ona bu səfərə çıxmamağı məsləhət gördü və dedi: “Özün getmə.Çünki,səni it kimi gözləyirlər.”
Ömər dedi: “Mən düşmənə onların Abbas ibn Əbdulmutəllibi öldürmələrinə mane olmaq istəyirəm.Əgər siz Abbası itirsəniz onda şər sizi də haqqlayacaqdır.”
Beləliklə Ömər Şama tərəf tələsdi.Əli isə Ömərin yerinə Mədinədə qaldı.” (İbn Əbil Hədid “Şərh Nəhcul Bəlağa”c.2,cüz 8,səh 370)

Tarixçilər qeyd edirlər ki,Faruq (r.a) üç dəfə Əli (r.a)-ı öz yerinə Mədinədə buraxdı.

1) Hicri 14-cü ildə Ömər (r.a) İraqa yürüş edəndə.
2) Hicri 15-ci ildə Ömər (r.a) Şama Bizans ilə müharibəyə gedəndə.(İbn Kəsir Tarixi c.7,səh 35,55)
3) Hicri 17-ci ildə onun Aylu döyüşünə getdiyi zaman. (Təbəri c.4,səh 83,195)

Ona görə insanlar Əlinin ətrafında toplanıb,ona beyət etmək istədikdə O deyirdi: “Mənim sizə vəzir olmağım, əmir olmağımdan daha xeyirlidir.” (“Nəhcul Bəlağa” Subki Saleh tədqiqi ilə səh 136)

İmam Həsən də Ömərin Xəlifəliyi zamanı onun başçılığı altında cihadda iştirak edirdi.

Şiələrin “Həddin sonu” kitabında yazılır. “İsfahanda “Yerin dili” adlı məscid vardır.Bu yer ona görə belə adlanıb ki, İmam Həsən Ömərin Xilafəti zamanı Allah yolunda İslam

ordusu ilə birgə bu torpaqları fəth edərkən bu yerdə dayanmışdı.” (“Həddin sonu”səh 390)

Mufid “İrşad” kitabında“Möminlərin Əmirinin övladları” fəslində yazır: “Möminlərin Əmirinin 27 övladı olub.Birincisi Həsən,ikincisi Hüseyn…altıncı Ömər,yeddinci Rüqəyyə.Ömər və Rüqəyyə əkiz idilər.Onların anası Umm Həbib bint Rəbiyyə idi. (Mufid “İrşad” səh 176)

Yəqubi yazır: “Əli (r.a)-ın 14 oğlu var idi: Həsən,Hüseyn,Muhsin (uşaq ikən ölüb).Onların anası Fatimə (r.a) idi….Ömər,bunun anası Umm Həbib bint Rəbiyyə əl Bəkriyyə idi.” (“Tarix Yəqubi” c.2,səh 212; İsfəhani “Məkatilun talibin” səh 84)

Məclisi yazır: “Ömər ibn Əli Hüseyn (r.a) ilə Kərbəlada şəhid olanlardan idi.Onun anası Umm Bənin bint əl Hizam əl Kiləbiyyə idi.” (“Cilalul əyun” səh 570)

“Fəslul muhim” kitabı və digər kitablarda “Əli ibn Əbu Talibin övladları”fəslində yazılır: “Ömər Bəni Təqlub qəbiləsindən olan qadından dünyaya gəlmişdi.Onu adı Səhba bint Rəbiyyə idi.O,Xalid ibn Vəlid tərəfindən Əyun Təmr döyüşündə əsir götürülənlərdən idi.Bu Ömər 85 il yaşadı və ona Əli (r.a)-ın mülkünün yarısı miras qaldı.Bu ona görə belə oldu ki,onun qardaşları Abdulla,Cəfər,Osman Hüseyn (r.a)-la birgə Kərbəlada şəhid olmuşdular.Ona görə də ona qardaşlarına çatan miras çatdı.” (“Fəslul muhim” səh 143; “Umdətul Talib” səh 361; “Kəşful-ğummə” c.1,səh 575)

Şeyx Mufid “Həsən ibn Əlinin övladları” fəslində yazır: “Həsən ibn Əlinin övladlarının sayı 15 idi:
1)Zeyd….5)Ömər,6)Qasim,7)Abdulla.Bunların anası Umm Vələd idi.” (Mufid “İrşad” səh 194;“Tarix Yəqubi” c.2,səh 228; “Umdətul Talib” səh 81;“Fəslul muhim”səh 166)

Məclisi yazır: “Ömər ibn Həsən Kərbəlada şəhid olanlardan idi.” (“Cilalul əyun” səh 582)

İsfəhani isə hesab edir ki,O ölməyib,əsir düşmüşdü.İsfəhani yazar: “Hüseynin ailəsi əsir düşmüşdü.Ömər,Zeyd və Həsən (İmam Həsənin oğlanları) də onlardan idi.” (İsfəhani “Məkatilun talibin” səh 119)

Məclisi Kərbəlada şəhid olan Hüseynin ailəsini qeyd edərkən yazır: “Hüseyn (r.a)-ın oğlanlarından şəhid olanlar məlum olduğu kimi Əli Əkbər və Abdulla idi ki,hansıki atasının qucağında canını tapşırdı.Bəziləri deyir ki,onun şəhid olan övladları arasında Ömər və Zeyd də var idi.” (“Cilalul əyun” səh 582)

İmam Zeynəlabiddin də öz oğullarından birinin adını Ömər qoymuşdu.Mufid “Əlinin övladları” fəslində yazır: “Əli ibn Hüseynin (Zeynəlabiddin) 15 oğlu var idi: 1) Muhəmməd Baqir (Əbu Cəfər),...6) Ömər (anası Umm Vələd idi) “(Mufid “İrşad” səh 261; (Ərdəbili “Kəşful Ğummə”,c.2,səh 105; “Umdətul Talib” səh 194; “Fəslul muhim” səh 209)

İsfəhani yazır: “Ömər Zeyd ibn Əlinin ata,anası bir olan doğma qardaşı idi.Zeyd ibn Əlinin bioqrafiyası altında müəllif yazır: “Zeyd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib...Onun anası Umm Vələd idi.O,Muxtar ibn Əbu Ubeydə tərəfindən Əli ibn Hüseynə verilmişdi.Bu qadından İmam Zeynəlabiddinin Zeyd,Ömər,Əli və Xədicə adlı övladları olmuşdu...” (“Məkatilun talibin” səh 127)

Həmçinin Musa Kazım ibn Cəfər (7-ci İmam) öz oğullarından birinin adını Ömər qoymuşdu.Bu barədə Ərdəbili İmam Museyyi Kazim övladlarından bəhs edərkən yazır. (Ərdəbili “Kəşful Ğummə”,səh 126)

Əhli Beytin Osmana münasibəti

Əli (r.a) deyir: “Mən Peyğəmbər (s.a.s)-dən Fatiməni istədiyim zaman O mənə dedi: “Öz qalxanını sat və əvəzində pul gətir ki,bunun müqabilində mən səni və Fatiməni bəzi şeylərlə təmin edim.
Əli (r.a) deyir: “Mən qalxanımı aldım və bazara getdim.Orada mən qalxanımı Osman ibn Əffəna satdım.Mən pulu,Osman isə qalxanı alanda O mənə dedi: “Ey Əbu Həsən! Sənin pula ehtiyyacınmı var? Mən dedim: “Elədir.”
Osman dedi: “Qalxanını götür.Mən onu sənə bağışladım.”
Mən qalxan və pulu alıb,Peyğəmbər (s.a.s)-in yanına gəldim.Onu Peyğəmbər (s.a.s)-in qabağına qoyub,Osmanın nə etdiyini dedim.Bundan sonra Peyğəmbər (s.a.s) onu üçün dua etdi.” (Xəvarəzmi “Mənakib” səh 252-253; Ərdəbili “Kəşful Ğummə”,c.1səh 359)

Peyğəmbər (s.a.s)-in əmisi oğlu İbn Abbas deyir: “Allah Osman ibn Əffanı əhf etsin.Allaha and olsun ki,O insanlardan ən səxavətlisi və ən təqvalılarından idi.Gecə namazları üçün yuxusuz qalar,cəhənnəm odunu xatırlayan zaman çoxlu göz yaşları tökərdi.Hər xeyir işi dəstəkləyər,yaxşı əməllərdə yarışardı.O,sevimli,sadiq olub,ordunu təhciz edərdi və Peyğəmbər (s.a.s)-in kürəkəni idi.” (Məsudi “Tarix” c.3,səh 51)

Ərdəbili Ənəsdən rəvayyət olunan hədisdə yazır: “Mən Peyğəmbər (s.a.s)-in yanında idim və birdən ona vəhy gəlməyə başladı.Özünə gələndən sonra mənə dedi: “Ey

Ənəs.Bilirsənmi,Cəbrayıl mənə hansı xəbərlə gəldi?Mən dedim: “Allah və Rəsulu daha yaxşı bilir.”
Peyğəmbər (s.a.s) dedi: “Allah Təala mənə Fatiməni Əliyə ərə verməmi əmr etdi.İndi isə get və Əbu Bəkr,Ömər,Osman və Ənsarlardan olanları çağır.”
Ənəs deyir: “Mən getdim və onları çağırdım.Onlar gəlib,oturanda Peyğəmbər (s.a.s) Allahı həmd səna etdi və dedi: “Mən sizi şahid tuturam ki,Fatiməni Əliyə 400 misqal gümüş müqabilində ərə verirəm.”(“Kəşful-ğummə”c.1,səh 358)

Məclisi “Həyatul qulub” kitabında Şeyx Səduqdan səhih isnadla bu rəvayyəti nəql edir: “Peyğəmbər (s.a.s)-in Xədicə (r.a)-dan Qasim,Abdulla,Ümm Gülsüm,Ruqəyyə,Zeynəb və Fatimə adlı övladları olmuşdu.Əli (r.a) Fatimə ilə,Əbul As ibn Rabiə Zeynəblə,Osman isə Umm Gülsümlə evləndi.Umm Gülsüm vəfat etdikdə Peyğəmbər (s.a.s) Osmanın Bədrdə iştirakını istədi və onu Ruqəyyə ilə evləndirdi.”(Məclisi “Həyatul qulub” c.2,səh 588,fəsil 51)

Buna bənzər nəqli əl Himəri “Qaribu sənəd” kitabı (səh 6-7);Şeyx Abbas Qummi “Muntəxil aməl” c.1,səh 108;əl Məqani isə “Tənrihul rical” kitabında c.3,səh 78-də qeyd etmişlər.

Məsudi Peyğəmbər (s.a.s)-in övladlarından bəhs edərkən yazır: “Onun bütün övladları İbrahimdən başqa Xədicədəndir.Qızlarından Ruqəyyə və Umm Gülsümlə Osman evlənmişdi.” (Məsudi “Muruc əz Zəhab” “Qızıl göllər” c.2,səh 298)

Kuleyni və əl Xuvəyzi kitablarında nəql edirlər: “Peyğəmbər (s.a.s) Xədicə ilə evlənəndə onun 20-dən çox yaşı var idi.Xədicə besətə qədər Qasim,Ruqəyyə,Zeynəb,Umm Gülsümü,besətdən sonra isə Teyyib,Tahir və Fatiməni dünyaya gətirdi.” (“Üsuli Kafi” c.1,səh 439-440;”Nuru saqaleyn”c.3,səh 303)

Xaricilər Əlinin (r.a.) yanına gəlib Osmandan (r.a.) şikayət edəndə, o Osmanın (r.a.) yanına gəlib belə demişdir: «Arxamdakı adamlar məni səninlə özləri arasında səfir etmişlər. Allaha and olsun ki, bilmirəm sənə nə deyim. Elə bir iş yoxdur ki, mən bilim, sən yox. Biz nəyi bilirik, sən də bilirsən. Bir şeydə səndən irəlidə deyilik ki, sənə onun haqqında məlumat verək. Bu sözlər Əlinin (r.a.) çox təvazökar olduğuna daha bir sübutdur . Səndən bir şey də gizlətməmişik ki, indi onu sənə çatdıraq. Sən bizim gördüklərimizi görmüsən, eşitdiklərimizi də eşitmisən, sən də Allahın elçisinin (s.a.s.) səhabələrindən olmusan. Nə ibn Əbu Quhafə (Əbu Bəkr) nə də İbn əl-Xəttab haqq işində səndən irəli deyillər. Sən Allahın elçisinin (s.a.s.) atasına, qan qohumluğuna görə onların hər ikisindən də yaxınsan. Sən onun o biri iki kürəkəninin “Burada Peyğəmbərin (s.a.s.) qızları Fatimənin (r.a.) həyat yoldaşı. Əli (r.a.) və Zeynəbin (r.a.)

həyat yoldaşı Əbu-l-As (r.a.) nəzərdə tutulur. “nail olmadığına nail olmusan» Yəni, Peyğəmbərin (s.a.s.) iki qızını -Ruqiyyə (r.a.) və Ummu Gülsüm (r.a.) almısan. («Nəhcu-l-Bəlağə), səh: 234 (tərcümədə səh. 169, Tehran çapı, 1995).

"Həsən Bin Əli (r.a) Peyğəmbər (s.a.s)-dən etdiyi rəvayərdə:
Peyğəmbər (s.a.s): Əbu Bəkr mənim qulağım ,Ömər mənin gözüm və Osman isə mənim ürəyim misalındadır. Həsn bin Əli sabahısı gün Peyğəmbər (s.a.s)-in yanına getdiyimdə , orada möminlrin əmiri Əli,Əbu Bəkri, Ömər və Osman gördüm və ey atacığım sənin əshabələrindən bunlar haqqında belə dediyini eşitmişəm dedim.Peyğəmbər (s.a.s) bəli cavabını verdi və onlara işarə edərək, onar qulağım, gözüm və ürəyimdir dedi.(Təfsirul Burhan cild 4\564,565)"

Kuleyni yazır: “İmam Cəfər baradə deyirlər ki,O Osmanı tərifləmiş,onu və ardıcıllarını Cənnətlə müjdələmişdir: “Günün əvvəlində carçı göydən nida edəcək.”Mükafatlarını almış Əli və tərəfdarları”.Günün sonunda isə nida edəcək: “Həqiqətən mükafatlandırılmış Osman və tərəfdarları.” (“Kafi” c.8,səh 209)

Əli (r.a) Osman (r.a)-ın qətlə yetirilməsindən sonra ona qisas üçün üz tutan Mədinəlilərə deyir: “Ey qardaşlarım! Mən sizin dediklərinizdən bixəbər deyiləm.Lakin,mən nə edə bilərəm.Onlar öz tikanları ilə bizə malikdirlər,biz isə onlara malik deyilik.Onlar istədiyi qədər sizin aranızdadırlar.Sizin tələb etdiklərinizi yerinə yetirməyə macal görürsünüzmü?... Ona görə səbirli olun ay camaat.Gərək bu insanların sakitləşməsini,qəlblərin öz yerində qərar tutmasını və imkan yaranmasını gözləyək.Mənə qarşı sakitləşin və mənim sizə verəcəyim əmri gözləyin.Elə bir əməl etməyin ki,o bizim gücümüzü zəiflədib,zəlilliyə salsın.Mən hələki gözləyəcəyəm.” (“Nəhcul Bəlağa”səh 243; “Biharul Ənvar” c.31,səh 502)

İmam Cəfəri Sadiq öz atasından rəvayyət edir ki,Əli (r.a) öz döyüşçülərinə belə demişdi: “Biz onlarla onları kafir hesab etdiyimizə görə vəya onların bizi kafir hesab etdiklərinə görə vuruşmuruq.Sadəcə olaraq biz özümüzü,onlar da özlərini daha haqqlı sayırlar.” (“Qurbul isnad” səh 45; “Biharul Ənvar” c.32,səh 324)

Kuleyni kitabında rəvayyət edir: “Peyğəmbər (s.a.s) Osman ibn Əffanı göndərib dedi: “Qövmündən olan inananların yanına get və onlara Allahın mənə verdiyi Məkkənin fəthi müjdəsini çatdır.Osman getdi və yolda çoban Abban ibn Səidə rast gəldi.O,Osmanı özü ilə apardı.Məkkəyə daxil olanda O ordakı müsəlmanlara bu müjdəni çatdırdı.Burada toqquşma baş verdi.Suheyl ibn Amr Peyğəmbər (s.a.s)-lə müqavilə şərtlərini müzakirə etdi,Osman isə Məkkə müşriklərinin yanında girov qaldı.Peyğəmbər (s.a.s) müsəlmanlardan beyət almağa başladı və əlini digər əlinin üzərinə qoyub “Bu da Osmanın yerinə” dedi.Müsəlmanlar dedilər: “Əhsən Osmana.O,artıq Kəbəni təvaf edib,Səfa və Mərva ilə vidalaşıbdır. Peyğəmbər (s.a.s) isə dedi: “O,bunu etməyib və etməyəcəkdirdə.”

Osman qayıdanda Rasulullah (s.a.s) ondan soruşdu: “Sən Kəbəni təvaf etdinmi?” O dedi: “Allahın Elçisinin təvaf etmədiyini təvaf etmək mənə yaraşmaz.” Sonra olanlar baradə danışdı.” (“Rəvdətul Kafi” c.8,səh 325-326; ”Biharul Ənvar” c.20,səh 365))

Məclisi “Həyatul qulub” kitabında buna bənzər rəvayyət nəql edir: “Osmanın öldürülməsi xəbəri Peyğəmbər (s.a.s)-ə çatdığı zaman O dedi: “Mən burdan Osmanın qisasını almayınca tərpənməyəcəm və ağaca söykənib,insanlardan və Osmanın yerinə beyət aldı.” (c.2,səh 424)

“Osmana ilk beyət edən Abdurrahmən ibn Auf oldu.Sonra Əli ibn Əbu Talib beyət etdi.” (“Təbaqat”c.3,səh 42)

Əli (r.a) deyir: “Faruq öldürüləndə O məni altı nəfər namizəddən biri etdi.Mən şura üzvlərindən idim.Mən müsəlmanların sözlərinin bütövlüyünü pozmaq və qırmaq istəmədim.Siz də mənim kimi Osmana beyət etdiniz.” (Tusi “Əməli” c.2,cüz18,səh 121)

Həmçinin Əli (r.a) deyir: “Siz bilirsiz ki,mən buna başqasından daha layiqəm.Lakin,Allaha and olsun ki,mən müsəlmanların istənilən qərarı ilə razılaşacam.Bununla yalnız səyləri və üstünlükləri olanlara haqqsızlıq edilmiş olar.” (“Nəhcul Bəlağa” Subki Saleh tədqiqi ilə səh 102)

İbn Əbil Hədid öz şərhində yazır: “Abdurrahmən ibn Auf Əliyə dedi: “Beyət et.Əgər etməsən qeyri müsəlmanların izlədikləri yolu getmiş olacaqsan....”Əli dedi: “Siz axı bilirsiz ki,mən buna başqalarından daha layiqəm...Sonra əlini uzatdı və beyət etdi.” (“Nəshu təvarih” c.2,kitab 2,səh 449)